29 sentyabr 2023 №72 (2041)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Əsgər və zabitlərimizin igidliyinin, xalqımızın əzminin simvolu

Sentyabrın 27-də – Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.




Dövlətimizin başçısı və birinci xanım parkın girişində xatirə daşının önünə gül dəstələri qoyublar.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

8 Noyabr prospektində inşa olunan Zəfər parkı doqquz hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək. Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq.

***davamı səh. 2-də***

## Azad torpaqlar dirçəlir

### Prezident İlham Əliyev Cəbrayıl və Zəngilana səfər edib

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Cəbrayıl rayonuna səfər edib.

Dövlətimizin başçısı Cəbrayıl şəhərində inzibati binanın təməlini qoyub. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev ölkə başçısına görüləcək işlər barədə məlumat verib.

Bildirilib ki, Baş plana əsasən, inzibati bina işgüzar zona kimi müəyyən olunmuş bir hektar ərazidə tikiləcək. Layihəyə əsasən, ərazidə dörd bina inşa ediləcək. Hər bina müasir üslubda layihələndirilib. İlkin mərhələdə 4-5 mərtəbədən ibarət ikikorpuslu bina kompleksinin tikintisi planlaşdırılır və binalar körpü vasitəsilə əlaqələndiriləcək. Digər 3-4 mərtəbəli binaların tikintisi isə ikinci mərhələ üçün nəzərdə tutulur. Binaların fasadında müasirlik və milliliyin ahəngi əsas götürülüb. Belə ki, eyvanlarda milli elementimiz olan şəbəkədən istifadə olunacaq.

Layihəyə əsasən, inzibati bina kompleksinin həyətində sakinlərin istirahəti üçün park salınacaq. Buradakı avtomobil dayanacağı elektrik doldurma məntəqələri ilə təmin olunacaq.

Kompleksin elektrik enerjisi təminatını qismən ödəmək məqsədilə binaların damında və istifadə olunmayan boş ərazilərində günəş panelləri quraşdırılacaq.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoyub.

***




Dövlət başçısı həmin gün Cəbrayıl şəhərində Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən inşa edilən ilk yaşayış məhəlləsi – Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış olub.

MİDA idarə heyətinin sədri Sadiq Sadıqov Prezidentə tikinti işlərinin gedişi barədə məlumat verib. Qeyd olunub ki, ümumi sahəsi 7,9 hektar olan yaşayış kompleksi 33 binadan ibarətdir. Dördmərtəbəli və beşmərtəbəli binalarda ümumilikdə 718 mənzil olacaq. Onların 8-nin birotaqlı, 136-sının ikiotaqlı, 8-nin ikiotaqlı studio tipli, 392-sinin üçotaqlı, 168-nin isə dördotaqlı olması nəzərdə tutulur. Birotaqlı mənzillərin sahəsi 40-50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55-90 kvadratmetr, ikiotaqlı studio tipli mənzillərin sahəsi 98-100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90-108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110-120 kvadratmetr təşkil edəcək.

Altı kvartaldan ibarət kompleksin inşası sürətlə və keyfiyyətlə həyata keçirilir. Bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunacaq.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

***davamı səh. 2-də***

## “Erməni sakinləri Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq”

Ermənistanın Baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin guya “etnik təmizləmə”yə məruz qaldığı barədə 28 sentyabr 2023-cü il tarixli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı açıqlamada bildirilir. Qeyd olunur ki, bu cür həyəcan təbili çalan rəvayət Ermənistan Baş nazirinin Azərbaycan tərəfindən erməni sakinlərə qarşı heç bir təhlükənin olmadığını söylədiyi 21 sentyabr tarixli bəyanatı ilə ziddiyyət təşkil etməklə yanaşı, Azərbaycanın humanitar dəstək və reinteqrasiya istiqamətində göstərdiyi səyləri pozmağa və Azərbaycan ilə Ermənistan arasında sülhün mümkün perspektivlərini sarsıtmağa hədəflənib.

***davamı səh. 2-də***

## Üzeyir bəy soraqlı daha bir musiqi bayramı tarixə qovuşdu...

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 18-28 sentyabr tarixlərində gerçəkləşən Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı yaddaşlarda silinməz iz qoydu. Sentyabrın 28-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında festivalın bağlanış mərasimi keçirildi.

Tədbirdə mədəniyyət nazirinin müavini Murad Hüseynov, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak edirdilər.

Bağlanış mərasimində almaniyalı dirijor Valentin Egelin rəhbərliyində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri ilə solistlər Chloe Kiffer (violin, Fransa), Henri Demarquette (violonçel, Fransa) Aleksandr Mutuzkin (piano, ABŞ) çıxış etdilər.

Proqramda L.V.Bethoven, K.Debüssi və F.Qarayevin əsərləri səsləndirildi.




Qeyd edək ki, 2009-cu ildən başlayaraq hər il keçirilən festival bu il də müxtəlif ölkələrdən tanınmış ifaçı və kollektivləri, dirijorları bir araya gətirdi. ABŞ, Fransa, Gürcüstan, Xorvatiya, Rusiya, Sinqapur, Almaniya və digər ölkələrdən musiqiçilərin iştirakı ilə maraqlı konsertlər, ustad dərsləri və s. təşkil olundu. 15-ci festivalın ən əlamətdar hadisəsi isə açılış mərasiminin görkəmli bəstəkar Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletinin Heydər Əliyev Sarayında nümayişi oldu. Uzun illərdən sonra bəstəkarın öz vətənində səhnələşdirilən “Məhəbbət əfsanəsi”ndə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının və Azərbaycan Dövlət Rəqs Ansamblının artistləri ilə yanaşı, xarici teatrlardan dəvət olunan solistlər də rol almışdı.

Xatırladaq ki, dahi Üzeyir bəyin doğum gününün (18 sentyabr) musiqi bayramı kimi qeyd edilməsi ənənəsi Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderin 1995-ci ildə bəstəkarın 110 illik yubileyi münasibətilə imzaladığı fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü (“Üzeyir musiqi günü”) kimi qeyd olunur.

Beləliklə, ölkəmizin suverenliyinin tam bərpa olunduğu çox əlamətdar bir dönəmdə Üzeyir bəy soraqlı daha bir musiqi bayramı tarixə qovuşdu. Yeni festivallarda görüşmək diləyilə.

## Torpaq uğrunda son şəhidlərimiz olsun...



Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 19-20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olunub.

Səhiyyə Nazirliyindən verilən məlumata görə, antiterror tədbirləri zamanı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid olub.

Şəhid olmuş hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər isə Daxili İşlər Nazirliyinin hərbi qulluqçularıdır. Şəhid olanlardan 1 nəfər mülki şəxsdir.

11 nəfərin şəxsiyyəti genetik müayinələr aparıldıqdan sonra müəyyənləşdiriləcək.

Eyni zamanda antiterror tədbirləri nəticəsində 511 hərbi qulluqçumuz və 1 mülki şəxs yaralanıb.

Vətəni bütövləşdirən, suverenliyimizi canı-qanı bahasına bərpa edən şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirik. Başın sağ olsun, Vətən!

## “DokuBaku” VII Beynəlxalq Sənədli Filmlər Festivalı keçirilir

Mədəniyyət Nazirliyinin dəstəyi ilə 26 sentyabr – 1 oktyabr tarixlərində “DokuBaku” VII Beynəlxalq Sənədli Filmlər Festivalı keçirilir.



Sentyabrın 26-da Nizami Kino Mərkəzində festivalın açılış mərasimi oldu.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Kino Agentliyinin şöbə müdiri Rəşad Qasımov bildirdi ki, hər bir film festivalı kinonun bayramı deməkdir. “DokuBaku” festivalı Mədəniyyət Nazirliyi və onun nəzdində fəaliyyət göstərən Kino Agentliyinin dəstəyi ilə həyata keçirilir. O, təşkilatçılara təşəkkürünü bildirdi, festivalın işinə uğurlar arzuladı.

Tədbirin aparıcısı aktrisa Kəmalə İsrafilova diqqətə çatdırdı ki, artıq yeddinci dəfə təşkil olunan festivalın mövzusu “KosmoDarvinizm: dolça dövrü”dür. Builki festival üçün seçilmiş filmlərin əksəriyyəti bəşər övladının dəyərini və onun texnologiyadan istifadə etmədən uğur qazanma arzusunu bəyan edir.

***davamı səh. 3-də***

## “Arzum Bakıda gənclərə animasiya dərsləri verməkdir”

Tanınmış animasiya rejissoru və rəssamı Məsud Pənahi. O, Cənubi azərbaycanlı yazıçı, Təbrizdə Milli hökumətin qurulmasında və fəaliyyətində mühüm rol oynamış Pənahi Makulunun (1900-1971) yadigarıdır. Animasiya sahəsində çoxsaylı uğurlara imza atıb.

1979-cu ildən Almaniyada yaşayan sənətkar bu günlərdə paytaxtımızda keçirilən 6-cı “Animafilm” Beynəlxalq Animasiya Festivalının qonaqları arasında idi. Bu il 80 illiyini qeyd edən Məsud müəllim daha çox “Tıq-tıq xanım və Siçan bəy” (1974) cizgi filmi ilə məşhurdur. Onunla elə festival zamanı həmsöhbət olduq.

“Bizdə istedadlı gənclər var, lakin onları öyrətməyə mütəxəssislər yoxdur. Gəncləri düzgün yönəltmək, sənətin sirlərini öyrətmək lazımdır...

Arzum Bakıda gəncləri bir yerə yığıb onlara üç ay müddətində animasiya dərsləri keçməkdir...”.

***səh. 5***

Musiqili Teatrda “Sükunət paradoksu”



***səh. 3***

Mədəniyyət müəssisələrində fəaliyyətin səmərəli təşkili diqqət mərkəzində saxlanılmalıdır

***səh. 4***




Maestro haqqında xatirələr ilk dəfə Azərbaycan dilində

***səh. 5***

№72 (2041)
29 sentyabr 2023
www.medeniyyet.az

# Akademik Ziya Bünyadovun 100 illik yubileyi qeyd olunacaq

Prezident İlham Əliyev sentyabrın 28-də görkəmli tarixçi və şərqşünas-alim, tanınmış ictimai xadim, Dövlət mükafatı laureatı, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Musa oğlu Bünyadovun (1923-1997) 100 illik yubileyinin qeyd olunması haqqında sərəncam imzalayıb.



Sərəncamda qeyd olunur ki, akademik Ziya Bünyadov zəngin elmi yaradıcılıq yolu keçib, respublikamızda şərqşünaslıq və tarix elmlərinin yeni mərhələyə yüksəlməsinə, ümumən, elmin təşkili işinə böyük əmək sərf edib. İlk dəfə onun elmi ictimaiyyətə çatdırdığı və dilimizə mükəmməl surətdə çevirərək əhatəli müqəddimə və şərhlərlə nəşr etdirdiyi bir çox nadir mənbələr bu gün də davamlı istinad olunan ən mötəbər qaynaqlar sırasındadır. Ziya Bünyadov Azərbaycan xalqının tarixinin saxtalaşdırılması cəhdlərinə qarşı daim ardıcıl və qətiyyətli mübarizə aparıb, taleyüklü milli məsələlərə münasibətdə hər zaman vətənpərvər ziyalı mövqeyi ilə seçilib.

Sərəncamda AMEA-ya akademik Ziya Bünyadovun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

# Əsgər və zabitlərimizin igidliyinin, xalqımızın əzminin simvolu

*əvvəli səh. 1-də*

Zəfər Muzeyinin əsas girişində yaradılacaq "Dəmir yumruq" simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. "Dəmir yumruq" Zəfərin əsasında dayanan Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.

Parka doğru keçid hissədə 8 Noyabr – Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti – Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər parkında həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq. Azadlıq Bayrağı Meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi 44 bürünc döşəmədən ibarət olacaq.

# Qarabağ bölgəsində yaşayan ermənilərin qeydiyyatı aparılacaq

Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və dövlətimizin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa həmin şəxslərin hüquqi statusunun müəyyən olunması ilə bağlı müvafiq tapşırıqlar verilib.

Bu barədə Prezident Administrasiyasının məlumatında bildirilir. Qeyd olunur ki, bu fəaliyyət çərçivəsində ilkin mərhələdə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin qeydiyyatının aparılması nəzərdə tutulur. Müraciətlərin qəbulu və qeydiyyata alınma prosesi Dövlət Miqrasiya Xidməti tərəfindən bu məqsədlə yaradılmış xüsusi portal vasitəsilə müraciət edən şəxslərin maksimum rahatlığı və informasiya əlçatanlığını təmin edəcək şəkildə elektron qaydada həyata keçiriləcək.

İlkin qeydiyyata alınma Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bütün dövlət xidmətlərindən səmərəli şəkildə yararlanmasına, həmçinin sosial-iqtisadi və humanitar ehtiyaclarının qarşılanmasına imkan yaradacaq.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası nəzərə çatdırır ki, Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilkin qeydiyyata alınmaq üçün könüllü şəkildə reintegration.gov.az portalına müraciət edə bilərlər.

Əlavə olaraq, yaxın zamanda müraciətlərin yerlərdə qəbulu da təşkil ediləcək.

# Millət vəkili Qənirə Paşayeva vəfat edib

Tanınmış ictimai xadim, Azərbaycan Respublikası Milli Məclisi Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva 28 sentyabr 2023-cü il tarixində, 48 yaşında vəfat edib.



Qənirə Ələsgər qızı Paşayeva 1975-ci il martın 24-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub. Azərbaycan Dövlət Tibb Universitetinin Pediatriya fakültəsini və Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq fakültəsini bitirib.

Siyasi elmlər üzrə fəlsəfə doktoru, professor olan Qənirə Paşayeva uzun illər media sahəsində fəaliyyət göstərib. 20-dən artıq elmi, publisistik kitabın, bədii əsərin və yüzlərcə məqalənin müəllifidir. 20-yə yaxın sənədli filmin ssenari müəllifi və baş məsləhətçisi olub. 2005–2012-ci illərdə Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri, 2012–2015-ci illərdə "Odlar Yurdu" Universitetində Siyasi elmlər kafedrasının müdiri vəzifələrində çalışıb.

Qənirə Paşayeva 2005-ci ildən 3, 4, 5-ci çağırış Milli Məclisin üzvü olub. 2020-ci ildən Milli Məclisin Mədəniyyət komitəsinin sədri idi.

"Mədəniyyət" qəzeti redaksiyasının kollektivi Qənirə Paşayevanın vəfatından kədərlənir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

# Azad torpaqlar dirçəlir

## Prezident İlham Əliyev Cəbrayıl və Zəngilana səfər edib

*əvvəli səh. 1-də*

Prezident İlham Əliyev sentyabrın 28-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, mərkəzin təməli dövlət başçısı tərəfindən 2022-ci il oktyabrın 19-da qoyulmuşdu.

Bildirilib ki, Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasından qidalanır. Mərkəz Cəbrayıl şəhərinin elektrik enerjisinə tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarəetməsini həyata keçirməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində tətbiq olunacaq müasir dispetçer idarəetmə sistemi elektrik enerjisinin real vaxt rejimində istehlakçıya çatdırılmasında abonent məmnunluğunu təmin edəcək.

Dövlət başçısı Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzini işə salıb.

Məlumat verilib ki, 35/0,4 kilovoltluq "Cəbrayıl şəhər" yarımstansiyası qovşaq yarımstansiyası olmaqla 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyası, Zəngilan, Qubadlı rayonları və Hadrut qəsəbəsi ilə əlaqələndirilməklə 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olacaq. Binanın dam örtüyündə yaradılan "yaşıl enerji" mənbəyinin şəbəkəyə inteqrasiyası həyata keçirilib.



***



Prezident İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda olub. Dövlətimizin başçısı Alıbəyli kəndinin təməlini qoyub. Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev Alıbəyli kəndi barədə məlumat verib.

Alıbəyli kəndi Həkəri çayının sahilində, Bərgüşad silsiləsinin ətəyində, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun üzərində yerləşir. İşğaldan azad olunmuş ərazilərin ümumi planına əsasən, Alıbəyli kəndi Birinci Alıbəyli, İkinci Alıbəyli, Sarıl və Xumarlı kəndləri ilə birlikdə layihələndirilir. Kəndin mövcud məskunlaşma ərazisi 103,5 hektar sahəni əhatə edir. Layihələndirilən ərazinin sahəsi isə 170,3 hektardır.

Bildirildi ki, Alıbəyli kəndində 2568 sakin üçün 498 fərdi evdən və 144 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin layihələndirilməsi nəzərdə tutulur. Birinci mərhələdə 772 sakin üçün 197 fərdi evin layihələndirilməsi və tikilməsi planlaşdırılır.

Kənddə inzibati bina, klub icma mərkəzi və qonaq evi, idman-sağlamlıq mərkəzi, məktəb binası, bazar kompleksi, mərasim zalı, iaşə obyektləri və digər müəssisələr olacaq. Burada tələbata uyğun ümumilikdə 462 şagird yerlik iki tam orta məktəb binasının tikintisi planlaşdırılır. Birinci mərhələdə 143 şagird yerlik məktəb binası inşa olunacaq. Üçmərtəbəli məktəbin ərazisində həm şagirdlər, həm də əhali üçün qaçış zolağı olan geniş idman meydançasının yaradılması nəzərdə tutulur. Kənddə məskunlaşacaq əhali üçün ümumilikdə 160 yerlik iki uşaq bağçası da tikiləcək.

Sonra Alıbəyli kəndinin inkişaf planı barədə videoçarx nümayiş etdirilib. Prezident kəndin təməlini qoyub.

***

Prezident Zəngilan rayonunda Zəngilan kəndinin də təməlini qoyub. Dövlət başçısına məlumat verilib ki, Zəngilan kənd inzibati ərazisinə daxil olan bu kənd şəhər mərkəzindən 3,1 kilometr məsafədə, Oxçuçayın sahilində, Zəngilan-Mincivan yolunun üzərində düzənlik ərazidə yerləşir. Baş plana əsasən, Zəngilan kəndi İçəri Müşlan və Məlikli kəndləri ilə birlikdə layihələndirilib. Kəndin layihələndirilən ümumi ərazisi 111,3 hektardır.

Zəngilan kəndində 1631 sakin üçün 306 fərdi evin və 102 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin tikilməsi nəzərdə tutulur. Birinci mərhələdə Zəngilan kəndinə 489 sakinin köçürülməsi üçün 127 fərdi ev tikiləcək.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman-sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı və qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq. Kənddə 294 şagird yerlik tam orta məktəb, 60 və 40 yerlik iki uşaq bağçası da inşa olunacaq.

***

Sentyabrın 28-də Prezident İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanış olub.

Qeyd edək ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən tövlə kimi istifadə olunub. İşğal altındakı ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində də bərpa-tikinti işləri başlanılıb. Heydər Əliyev Fondu tərəfindən təşkil olunan yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasını qiymətləndirib, binanın konservasiyası və bərpasına, o cümlədən bu ərazidə yeni məscidin tikilməsinə qərar verilib.

Zəngilanda inşa olunan məscidin təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci il aprelin 26-da qoyulub.

Məscidin inşası "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.

Hazırda məscidin daxili interyerində işlər davam etdirilir, o cümlədən ərazidə abadlaşdırma işləri aparılır. Layihənin 2024-cü ilin aprelində başa çatdırılması nəzərdə tutulur.

***

Dövlət başçısı sentyabrın 28-də Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışını edib.

Prezidentə görülən işlərlə bağlı məlumat verilib. Bildirilib ki, ərazisi 2,2 hektar olan kompleks iki hissədən ibarətdir. Kompleksə daxil olan 600 yerlik korpusda ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün müasir standartlara uyğun şərait yaradılıb. Digər korpusda isə kiçik həcmli müxtəlif tədbirlərin keçirilməsi üçün zal, mətbəx və VIP otaqlar mövcuddur.

Məlumat verilib ki, Zəngilan Konqres Mərkəzi Kompleksi yerli və xarici mütəxəssislər cəlb olunmaqla altı ay ərzində inşa edilib. Kompleksin tikintisinin qısa müddətdə başa çatdırılması üçün üçnövbəli iş qrafiki tətbiq olunub. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti əməkdaşlarının da fəal iştirakı ilə tikinti işləri yüksək keyfiyyətdə və standartlara uyğun şəkildə aparılıb.

Kompleksin ərazisində yaşıllıq zonaları, yerüstü parklanma sahəsi mövcuddur. Mərkəzin binasının dam hissəsində günəş panelləri yerləşdirilib.

***

Prezident İlham Əliyev həmin gün Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməlini qoyub.

Məlumat verilib ki, Zəngilan şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Şəhərdə daha əvvəl təməli qoyulan 110 mənzildən ibarət ilk yaşayış kompleksinin layihələri hazırdır və yaxın vaxtlarda tikinti işlərinə başlanılacaq.

Bildirilib ki, "Böyük Qayıdış" proqramına uyğun olaraq, növbəti yaşayış məhəllələrinin salınması çərçivəsində 410 mənzildən ibarət yeni yaşayış komplekslərinin tikintisi nəzərdə tutulur. İkinci yaşayış kompleksi Qələbə və Memorial parkların yaxınlığında, şəhərin azsıxlıqlı zonasında yerləşməklə əsasən "taunhaus" tipli evlərdən ibarət olacaq. Plana əsasən, burada 87 mənzil nəzərdə tutulur.

Daha sonra dövlət başçısı tərəfindən Zəngilan şəhərində 3-cü yaşayış kompleksinin də təməli qoyulub.

Qeyd olunub ki, yaşayış kompleksi iki sahəyə bölünüb və hər biri üçün özünəməxsus konsepsiya hazırlanıb. Binaların memarlıq baxımından fərqliliyini təmin etmək məqsədilə onlar müxtəlif üslubda layihələndirilib. Ümumi sahəsi iki hektar olan yaşayış kompleksində tikiləcək 3, 4 və 5 mərtəbəli çoxmənzilli binalar 8 blokdan və 192 mənzildən ibarət olacaq.

Zəngilan şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində bildirilib ki, kompleksin inşa olunacağı ərazi şəhərin ortasıxlıqlı çoxfunksiyalı zonasında, inzibati mərkəzin yaxınlığında yerləşir. Bu yaşayış kompleksinin ərazisi iki hektardır. Şəhərin təsdiq edilmiş Baş planına uyğun olaraq, kompleksdə 3, 4 və 5 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Konsepsiyaya əsasən, buradakı yaşayış binalarının 131 mənzildən ibarət olması planlaşdırılır.

Zəngilan şəhərində 160 yerlik uşaq bağçasının təməlqoyma mərasimində görüləcək işlər barədə Prezidentə məlumat verilib. Qeyd edilib ki, uşaq bağçası bir hektar ərazidə inşa olunacaq. Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx, camaşırxana yaradılacaq.

# "Erməni sakinləri Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq"

*əvvəli səh. 1-də*

Qeyd olunur ki, Ermənistan rəhbərliyi Azərbaycanın mərkəzi hökumət institutlarının operativ şəkildə Qarabağ bölgəsində yaşayan erməni sakinlər üçün zəruri humanitar dəstək tədbirlərinin həyata keçirilməsinə və təcili ehtiyaclarının ödənilməsinə başladığını nəzərdən qaçırır.

"Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin gedişinin onların şəxsi qərarı olduğu, bunun məcburi yerdəyişmə ilə heç bir əlaqəsinin olmadığı Baş nazir Paşinyana yaxşı məlumdur. Əgər erməni sakinlərin hansısa seqmenti Azərbaycan qanunvericiliyi və hakimiy-



yəti çərçivəsində yaşamaq və ona tabe olmaq istəmirsə, onları buna məcbur edə bilmərik. Bunun əksinə, biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq. Ermənistan regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün erməni sakinlərin reinteqrasiya prosesinə maneələri aradan qaldırmalı və hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə əsaslanan sülh müqaviləsi üzrə danışıqlar prosesinin uğurla başa çatmasına fokuslanmalıdır", – deyə XİN-in məlumatında bildirilir.

# Qətərlə mədəniyyət sahəsində əməkdaşlıq müzakirə olunub

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirlinin nümayəndə heyəti 25-26 sentyabr tarixlərində Qətər Dövlətinin Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirak edib.

Səfər çərçivəsində sentyabrın 26-da Qədər Dövlətinin Mədəniyyət Nazirliyində bu ölkənin mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Həməd əl-Tani ilə görüş keçirilib.

Nümayəndə heyətini salamlayan Şeyx Əbdülrəhman bin Həməd əl-Tani iki ölkə arasında mədəni əlaqələrdən söz açıb, münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Bildirilib ki, mədəniyyət və informasiya sahəsində əlaqələrin inkişafı üçün geniş imkanlar mövcuddur.

Qətərli nazir Azərbaycanda olduğunu, ölkəmizin mədəniyyətini, insanlarını, mətbəxini sevdiyini bildirib. O, iki ölkənin qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin, eləcə də muzey sahəsində təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.



Nazir Adil Kərimli səmimi qəbula, İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinə göstərilən xüsusi diqqətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Qeyd olunub ki, dövlət başçılarımızın dostluq münasibətləri, digər sahələrdə olduğu kimi, mədəni əlaqələrin də inkişafına zəmin yaradıb.

Görüşdə Qətərin mədəniyyət naziri bu ilin noyabrında Bakıda keçiriləcək beynəlxalq kitab sərgisinə və 2024-cü ildə paytaxtımızda təşkil olunacaq VI Dünya Mədəniyyətlərarası Dialoq Forumuna da dəvət edilib.

Bu il Qətərdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsinin planlaşdırıldığı və tədbirin təqviminin və proqramının dəqiqləşdirilməsi üzərində iş aparıldığı diqqətə çatdırılıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Vətən övladlarının əziz xatirəsinə ehtiram

Şanlı Zəfərlə başa çatan, müasir tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsinin üçüncü ildönümü tamam oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına cavab olaraq əks-hücumla əzəli torpaqlarımızın azadlığı üçün haqq mübarizəsinə başlayıb.



Vətən oğullarının misli görünməmiş fədakarlığı və şücaəti ilə otuzillik işğal cəmi 44 gün ərzində başa çatdırılıb, Qarabağ və Şərqi Zəngəzur, o cümlədən mədəniyyət paytaxtımız Şuşa şəhəri düşməndən azad edilib. Ordumuzun parlaq Qələbəsi ilə xalqımıza əbədi Zəfər ruhu bəxş olunub. Minlərlə igidimiz şəhidlik zirvəsinə ucalıb.

Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, bu müharibədə qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə ehtiram əlaməti olaraq sentyabrın 27-si Azərbaycanda Anım Günü elan edilib.

Sentyabrın 27-də bu münasibətlə Mədəniyyət Nazirliyinin əməkdaşları Bakıda inşası davam etdirilən Zəfər parkının girişində xatirə daşının önünə gül dəstələri qoyub, qəhrəman Vətən övladlarının ölməz ruhları qarışında ehtiramlarını bildiriblər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

# “Zəfərə doğru 44 gün”



Sentyabrın 26-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Anım Günü münasibətilə “Zəfərə doğru 44 gün” adlı tədbir keçirilib.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 27 sentyabr 2020-ci il tarixində başlanan və cəmi 44 gün davam edən Vətən müharibəsi 30 ilə yaxın erməni işğalında olan torpaqlarımızın, Qarabağın azadlığı ilə nəticələnib.

Muzeyin böyük elmi işçisi Əzirə Abdullayeva dövlətçilik tariximizin ən şərəfli səhifələrindən olan Vətən müharibəsindən, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş əsgər və zabitlərimizin qəhrəmanlığından danışıb.

Daha sonra şəhid musiqiçi Tamerlan Mahmudovun xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestrinin bədii rəhbəri Əməkdar incəsənət xadimi Əlibala Rzayev orkestrin tuba ifaçısı olmuş Tamerlan Mahmudov haqqında xatirələrini bölüşüb.

Sonra orkestr tərəfindən T.Məmmədovun iştirakı ilə dəfələrlə səsləndirilmiş əsərlərdən ibarət musiqi proqramı təqdim edilib.

# BXA-da Anım Günü

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) 27 sentyabr – Anım Gününə həsr edilmiş tədbir keçirilib.



Dövlət Himni səsləndirildikdən sonra Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bildirilib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı bütün şəhər, kənd və qəsəbələrimiz düşmən tapdağından azad olunub. Vurğulanıb ki, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, dövlət başçısının 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə 27 sentyabrın hər il Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınıb.

Daha sonra Azərbaycanın qəhrəman oğulları, Vətən uğrunda canlarından keçən şəhidlərimiz Polad Həşimov, İlqar Mirzəyev, Xudayar Yusifzadə, Əli Cəfərov, Kənan Quliyev, Camal İsmayılov, Gülverdi Qasımov, Muxtar Qasımlı, Səbuhi Əhmədov, Ramin Bayramov və digərlərinin ömür və döyüş yolu haqqında məlumat verilib.

Bədii hissədə “Qarabağa gedirəm”, “Vətən oğlu”, “Şəhid”, “Ey Vətən”, “Şəhid anası” və s. şeirlər səsləndirilib, səhnəciklər nümayiş olunub. BXA-nın tam orta təhsil pilləsi şagirdlərinin ifasında “Qarabağ Azərbaycandır!” devizi altında müxtəlif rəqs kompozisiyaları təqdim edilib.

# Şəhid qəhrəmanın əşyaları muzeyə verilib

Vətən müharibəsi şəhidi Əfqan Nəsirova məxsus hərbi köynək, təşəkkürnamə, fəxri fərman, fotoşəkillər, medallarının vəsiqəsinin surətləri, qol saatı Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna daxil edilib.

Muzeydən bildirilib ki, şəhidə məxsus nümunələr onun anası Kəmalə İsmayılova tərəfindən təqdim olunub.



Əfqan Nəsirov 2001-ci ildə Sabunçu rayonunun Zabrat qəsəbəsində anadan olub. O, 2007-2018-ci illərdə Bakı şəhəri 71 nömrəli orta məktəbdə təhsil alıb və 2019-cu ildə Beyləqan rayonunda hərbi xidmət keçib.

Əfqan Nəsirov Vətən müharibəsi zamanı 14 oktyabr tarixində şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunub.

# “Vətən müharibəsi xatirələrdə”

Sentyabrın 26-da Abdulla Şaiqin Mənzil-Muzeyində Anım Gününə həsr olunmuş “Vətən müharibəsi xatirələrdə” adlı tədbir keçirilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin direktoru Ülkər Talıbzadə qeyd edib ki, Anım Günü həm çox hüznlü, həm də fəxr ediləsi bir gündür: “Hüznlü gündür, ona görə ki, bu gün biz şəhidləri anırıq. Fəxr edirik, ona görə ki, şəhidlərin qanı yerdə qalmadı, torpaqlarımız düşmən tapdağından azad olundu”.



Jurnalistlər Zərəngiz Dəmirçi Qayalı və Tamilla Məmmədzadə çıxışlarında mövzu ilə bağlı fikirlərini bildiriblər.

Tədbirin bədii hissəsində muzeyin nəzdində fəaliyyət göstərən “Vətən” yaradıcılıq dərnəyinin üzvləri şəhid qəhrəmanlara həsr edilmiş şeirlər söyləyiblər.

Sonda 44 günlük Vətən müharibəsinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

# Musiqili Teatrda “Sükunət paradoksu”

Üzeyir Hacıbəyli festivalının tədbirlərindən biri də sentyabrın 26-da Akademik Musiqili Teatrda reallaşdı. Lüdviq van Bethovenin əsərləri əsasında “Sükunət paradoksu” adlı konsert-tamaşa seyrçi ilə görüşdü.

Skripkaçı Osman Eyyublu ərsəyə gətirdiyi layihəsi ilə dahi bəstəkarın yaradıcılıq dünyasından rəngarəng bir çələng təqdim etməyə çalışdı. Yaradıcılıq aktının rejissoru Aleksey Smirnov, səs dizayneri Səid Qəni idi.

“Cadenza” orkestri ilə əməkdaşlığın bəhrəsi olan layihə musiqinin mahiyyətini araşdıran və teatr elementləri ilə tamaşaçılara çatdıran yaradıcılıq məhsuludur.



Dinləyici tənhalıq və yadlaşma, insan ruhunun kövrəkliyi, mərhəmət və özünü qarşısındakının yerində hiss etmə kimi mövzular ətrafında müzakirələrdə iştiraka dəvət olunur.

Tamaşada L.Bethovenin solo və kamera pyeslərinin yalnız aram templərdəki hissələrindən istifadə edilib. Məhz buna görə onun ikinci adı “8 Adajio, 1 Andante”dir. Bethovenin məşhur vəsiyyətnaməsinə istinadən bəstəkarın yalnızlığının və onun həssas qəlb sahibi olmasının həyəcanverici bir hekayəsi öz musiqiləri vasitəsilə nəql olunur.

Səhnə aktı tamaşaçılara təsirli anlar yaşatdı.

**Həmidə**

# ADA Universitetində “Üzeyir sənətinin gənclik sədaları”



Sentyabrın 26-da festival çərçivəsində növbəti konsert proqramı ADA Universitetində təşkil olunub. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda döyüşlərdə şəhid olan Vətən övladlarının əziz xatirəsinə həsr edilən konserti izləyənlər sırasında universitetin rəhbərliyi və Mədəniyyət Nazirliyinin əməkdaşları da olub.

Təhsildə yenilikçi olan universitetdə hələ bir neçə gün əvvəl festival çərçivəsində təşkil ediləcək tədbirlə bağlı tələbələrə “Mədəniyyət Nazirliyi ilə birgə dünya şöhrətli bəstəkarımızın əbədiyaşar irsinə həsr olunmuş xüsusi tədbir keçirəcəyik. Görkəmli bəstəkar və Azərbaycan klassik musiqisinin atası Üzeyir Hacıbəylinin yazdığı musiqi şedevrlərinin dərin təsirini hiss edin”, - deyə müraciət olunmuşdu.

“Üzeyir sənətinin gənclik sədaları” adlı konsertdə lirik notlardan süzülən əsərlərlə yanaşı, qəhrəmanlığa çağıran cəngi sədaları da səslənib. Gənc və istedadlı dirijor Mustafa Mehmandarovun idarəsi ilə Bakı Kamera Orkestri, solistlər Yeganə Axundova (piano) Ataş Qarayev (vokal), Arzu Əliyeva (xanəndə) və Emil Bağırov (klarnet) universitetin müəllim və tələbə heyəti qarşısında çıxış ediblər.

Proqramda Ü.Hacıbəylinin “Aşıqsayağı”, “Sevgili canan”, Niyazinin “Laylay”, A.Əlizadənin “Cəngi”, A.Məlikovun “Noktürn”, Q.Qarayevin “İki rəqs” və T.Quliyevin “Qaytağı” əsərləri təqdim olunub. Konsert proqramı F.Əmirovun “Nizami” simfoniyası ilə yekunlaşıb.

# “DokuBaku” VII Beynəlxalq Sənədli Filmlər Festivalı keçirilir

## Proqramda 29 ölkədən 61 sənədli film yer alıb

əvvəli səh. 1-də

Qeyd olundu ki, festivalın proqramında 29 ölkədən 61 sənədli film yer alıb. İldən-ilə festivala müraciətlərin sayı artır. Ekran işləri beş kateqoriya üzrə yarışacaq: “Ən yaxşı tammetrajlı film”, “Ən yaxşı qısametrajlı film”, “DokuDarvin”, “No Main Müsabiqə”, “Müsabiqədənkənar” və “DokuKids”. Festivalda gender bərabərliyi də nəzərə alınıb. Bu il təqdim olunacaq filmlərin 40 faizi qadın rejissorlar tərəfindən lentə alınıb.

Bildirildi ki, filmləri Fransua Skulye, Nik Voyt, Maykl Qraversen, Andrea Tsulkova, Emil Nəcəfov, Fuad Şabanov – ümumilikdə 20 yerli və xarici ekspertdən ibarət münsiflər heyəti qiymətləndirəcək. Festivalın tərəfdaşlarının sayı da ildən-ilə artır. Builki festivalda Saloniki Beynəlxalq Film Festivalının (Yunanıstan) nümayəndəsi Yanis Palavos və Lissabon Sənədli Filmlər Festivalının (Portuqaliya) proqram tərtibatçısı Castin Cekl də iştirak edir. Hər kateqoriya üzrə birinci yeri tutan kinorejissorlara mükafatlar veriləcək. Bu il mövcud “iHuman”, “iCyborg”, “NewEye” mükafatları ilə yanaşı, yeni “CosmoHuman” mükafatı da təqdim olunacaq.




Festivalın direktoru, rejissor İmam Həsənov festivalın keçirilməsində əməyi olan hər kəsə minnətdarlığını bildirərək festivalı açıq elan etdi.

Daha sonra rejissor Mariya İbrahimovanın “Yüz yaşa – Lerikin uzunömürlüləri” filmi nümayiş olundu. Nümayişdən əvvəl rejissor dedi ki, bu onun Azərbaycanda çəkdiyi ilk filmdir. O, Azərbaycan kinosunun 125 illiyinə təsadüf edən festivalı və müəllifi olduğu filmin bu ərəfədə nümayişini yaradıcılığında əlamətdar hadisə kimi dəyərləndirdi.

**Lalə Azəri**

№72 (2041)
29 sentyabr 2023
www.medeniyyet.az

# Mingəçevirdə vətəndaşların müraciətləri dinlənilib

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, mədəniyyət naziri Adil Kərimli sentyabrın 28-də Mingəçevir şəhərində vətəndaşları qəbul edib.



Qəbuldan öncə nazir və Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Ümummilli liderin Mingəçevir şəhər Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər. Daha sonra mərkəzə baxış olub.

Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində keçirilən qəbulda əsasən Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Mədəniyyət Nazirliyinin məsul əməkdaşlarının da iştirakı ilə keçirilən görüşdə vətəndaşların müxtəlif mövzularda müraciətləri dinlənilib. Müraciətlər əsasən işlə təmin olunma, mədəniyyət sahəsi ilə əlaqədar təklif, ortaya çıxan problemlərin həlli və digər məsələlərlə bağlı olub.

Vətəndaşları ayrı-ayrılıqda dinləyən nazir bütün müraciətlərin araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.

Görüşdə şəhid ailələri və qazilərin qaldırdıqları məsələlərə xüsusi həssaslıqla yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

# Milli Dram Teatrı “Qarabağnamə”ni Şəkidə göstərib



Mədəniyyət Nazirliyi Ümummilli lider Heydər Əliyevin 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində regionlara təşkil olunan qastrol səfərlərini davam etdirir.

Qastrol aksiyasının məqsədi regionlarda mədəni həyatın fəallaşdırılması, əhalinin, xüsusilə də gənclərin asudə vaxtının keyfiyyətinin yüksəldilməsi, yerli yaradıcı kollektivlərlə daha sıx ünsiyyət və faydalı təcrübə mübadiləsinə şərait yaratmaqdır.

Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı “Qarabağnamə” tamaşası ilə Şəki Dövlət Dram Teatrında çıxış edib.

Xalq yazıçısı İlyas Əfəndiyevin “Hökmdar və qızı” pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədov, geyim rəssamı Aygün Mahmudova, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Həmid Kazımzadədir.

Rolları Xalq artistləri Kazım Abdullayev, Firəngiz Mütəllimova, Rafiq Əzimov, Hacı İsmayılov, Əli Nurzadə, Əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Ağaverdiyeva, Kazım Həsənquliyev, Elxan Quliyev, Elşən Cəbrayılov, Elnar Qarayev, Əminə Babayeva, aktyorlar İlyas Əhmədov, Ramin Şıxəliyev, Ləman İmanova, Cavidan Novruz, Firuzə Balayeva, Nəzrin Abdullayeva, Məhsəti Tahirzadə, Elsevər Rəhimov və Tural İbrahimov ifa edib.

Tamaşada Xalq artistləri Vasif Adıgözəlov və Polad Bülbüloğlu əsərlərindən istifadə olunub.

# “Melisa” gəncəli uşaqların qonağı olub

Teatrların bölgələrə qastrol səfərləri çərçivəsində Azərbaycan Dövlət Kukla Teatrının kollektivi sentyabrın 28-də Gəncə şəhərində son premyeraları olan “Melisa” tamaşasını təqdim edib.



Sevinc Nuruqızının eyniadlı nağıl-povesti əsasında hazırlanan tamaşanın səhnələşdirmə və quruluş müəllifi Saida Haqverdiyeva, quruluşçu rəssamı Əfşan Əsədova, bəstəkarı Röya Hüseynovadır. 6 yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulan səhnə işində obrazları Səriyyə Mansurova, Ülviyyə Əliyeva, Aygül Ağayeva, Cavid Telman, Elgün Həmidov canlandırıblar.

Sonu nikbin bitən hüznlü, həsrət dolu hekayənin qəhrəmanı uşaqlara sevgini, sədaqəti, heç vaxt öləziməyən ümidi, inamı və ən əsası da güclü olmağı təlqin edən çəhrayı saçlı gəlincik Melisadır. İllər əvvəl sahibindən ayrı düşən, başına fərqli hadisələr gələn, keçən zamanda fərqli insanlar tanıyan Melisa bir an belə olsun inamını, ümidini itirmir, sahibinə qovuşacağına inanır. Sonda xoş təsadüf nəticəsində bu xəyalı gerçək olur.

Melisa (gəlincik) və onun “yaşadıqlarını” fərqli formalarla tamaşaçıya təqdim edən səhnə işinin əsas ideyası uşaqlara həyatın yalnız çəhrayı rəngdən ibarət olmadığını göstərməkdir. Axı Melisa görür, hiss edir, düşünür, anlayır və anladır. O, təkcə gəlincik deyil, sadə həqiqətləri anlatmağa çalışan çəhrayı saçlı sevgidir. Tamaşaçını inandırır ki, bu dünyanı yalnız sevgi xilas edə bilər...

Səhnə işi balacalar tərəfindən maraqla qarşılanıb.

**Həmidə**

# Mədəniyyət müəssisələrində fəaliyyətin səmərəli təşkili diqqətdə saxlanılmalıdır





Xəbər verdiyimiz kimi, sentyabrın 28-də mədəniyyət naziri Adil Kərimli Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbuldan sonra nazir şəhərdəki bir sıra mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub.

İlk olaraq Mingəçevir Dövlət Dram Teatrına baş çəkən nazirə mədəniyyət ocağının tarixi, maddi-texniki imkanları, cari vəziyyəti və repertuarı haqqında məlumat verilib.



Nazir daha sonra Mingəçevir şəhər Ü.Hacıbəyli adına 1 nömrəli onbirillik Uşaq musiqi məktəbi, mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanası, Tarix Muzeyi, Mədəniyyət Mərkəzi, MKS-nin 9 saylı filialına baxış keçirib.

Baxış zamanı müəssisələrdə mövcud olan problemlərin aradan qaldırılması, fəaliyyətin səmərəli təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

Nazir son olaraq tarixi Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsinin şəhid qardaşları Əli və İslam Əhmədovların Ev-Muzeyində olub.

Şəhid qardaşların anası Sevinc Əhmədova oğullarının döyüş yolu, həmçinin muzeydə saxlanılan eksponatlar haqqında məlumat verib.

**Nurəddin**

# Vətən fədailəri unudulmur

Bölgələrdəki mədəniyyət müəssisələrində 27 sentyabr – Anım Günü münasibətilə müxtəlif tədbirlər keçirilib.

Gəncə şəhər Heydər Əliyev Mərkəzi və şəhər MKS-nin 16 nömrəli kitabxana filialı şəhid leytenant Erkin Hüseynovun ailəsi ilə görüş keçirib. Çıxış edənlər şəhidin həyatı və döyüş yolu haqqında danışıblar. Sonra Gəncə şəhər 17 saylı tam orta məktəbinin şagirdləri Vətən haqqında şeirlər söyləyiblər. Sonda “Gəncənin şəhid leytenantı Erkin Hüseynov” adlı videoçarx nümayiş etdirilib.

Samux rayon MKS-nin Mərkəzi Kitabxanasında Anım Günü ilə bağlı tədbir təşkil edilib. Çıxışlarda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə canlarını qurban verən şəhidlərin əziz xatirəsinin qəlblərdə əbədi yaşayacağı vurğulanıb.





Yardımlı rayon Heydər Əliyev Mərkəzində “Yenilməz xalqın qəhrəman oğulları” mövzusunda tədbir təşkil olunub. Çıxışlarda unudulmayan tariximizə çevrilən Vətən müharibəsində Ordumuzun göstərdiyi əvəzsiz qəhrəmanlıqlardan söz açılıb. Sonda şagirdlərin mövzu ilə bağlı fikirləri dinlənilib, Anım Gününə həsr olunan sərgiyə baxış keçirilib.





Goranboy rayon Mədəniyyət Mərkəzinin Qaraçinar kənd Mədəniyyət evində “Şəhidlər unudulmur” adlı tədbir keçirilib. Çıxış edənlər Ordumuzun rəşadəti sayəsində torpaqlarımızın Ermənistanın işğalından azad edilməsinin və uzun illər davam etmiş bu ədalətsizliyə son qoyulmasının xalqımızın tarixinə qızıl hərflərlə yazılmış qəhrəmanlıq salnaməsi olduğunu deyiblər. Sonra vətənpərvərlik mövzusunda musiqilər və şeirlər səsləndirilib.

***

Astara rayon Heydər Əliyev Mərkəzi və Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi Astara rayonu üzrə sektorunun birgə təşkilatçılığı ilə keçirilən anım tədbirində Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətin dünya hərb tarixinə yazıldığı vurğulanıb. Sonda tədbir iştirakçıları rayon Heydər Əliyev Mərkəzindəki rəssamlıq dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgiyə baxıblar.

Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncov qeyd edib ki, uğurlu “Dəmir yumruq” əməliyyatı Ordumuzun misilsiz qəhrəmanlığı ilə yanaşı, xalqımızın arxa cəbhədəki fədakarlığını da dünyaya nümayiş etdirib. Tədbirdə Masallı Xalq teatrının həvəskar aktyorları, Masallı Dövlət Regional Kollecinin müəllim və tələbələrinin iştirakı ilə Anım Gününə həsr olunan “Torpaq məni gözləyir” adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

***

Quba-Xaçmaz RMİ və Gənclərin İnkişaf və Karyera Mərkəzi Quba-Xaçmaz regional nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Zəfərə gedən yolda tarix yazanlar” mövzusunda tədbir keçirilib. Quba rayon Heydər Əliyev Mərkəzində gerçəkləşən tədbirdə bildirilib ki, Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsindən az sonra ölkəmizdə Anım Gününün təsis edilməsi haqqında dövlət başçısı tərəfindən sərəncam imzalanması şəhidlərimizin xatirəsinə sonsuz ehtiramın bariz nümunəsidir. Sonda Anım Gününə həsr edilmiş film nümayiş olunub.

***

Laçın rayon MKS-nin direktoru Ofelya Şükürova və Laçın 2 saylı şəhər kitabxana filialının əməkdaşları tərəfindən 44 günlük Vətən müharibəsi şəhidi Elnur Cabbarovun ailəsi ziyarət edilib.





Əslən Laçın rayonundan olan Elnur Cabbarov 1994-cü il sentyabrın 15-də Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində anadan olub. Burada təsis edilən məktəbdə təhsil alıb. Hərbi xidmətdən sonra FHN-in Xəzər rayonunda yerləşən hərbi hissəsində xidmətə başlayıb. Vətən müharibəsi zamanı noyabrın 5-də Şuşa uğrunda döyüşlərdə öz həyatını təhlükəyə ataraq, yaralı yoldaşlarını xilas edərkən ağır xəsarət alıb və bir həftə sonra şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra “Qarabağ” ordeni, “Vətən uğrunda”, Cəbrayıl, Füzuli və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.

***

Ordubad rayon Mədəniyyət Sarayında “Tusi” Xeyriyyə Cəmiyyəti idarə heyətinin sədri Yəhya Babanlının Vətən müharibəsində şəhadət zirvəsinə ucalan qəhrəmanlara həsr olunan “Ordubadın Zəfər zirvəsi” adlı kitabının təqdimatı keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuzun şücaəti ilə 30 illik erməni işğalına son qoyulmasından danışıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının sədri tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli, Əməkdar müəllim Könül İsmayılova və müəllif Yəhya Babanlının çıxışları dinlənilib.

**Hazırladı: N.Məmmədli**

# Lənkəranlı balacalar “Uçan səhnə”dən zövq alıblar

Lənkəran Dövlət Dram Teatrı “Uçan səhnə” tamaşası ilə rayonun Biləsər kəndində çıxış edib.

“Heydər Əliyev İli” və Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinə həsr olunan tamaşanın nümayişi bu dəfə “Azərsun Holding”in dəstəyi ilə gerçəkləşib.

Teatrın kollektivi uşaqlara “Uçan səhnə” ilə unudulmaz anlar yaşadıb. Sonda balaca tamaşaçılara hədiyyələr paylanılıb.

Uşaqlarla maraqlı oyunlar və əyləncəli yarışlar keçirən “Azərsun Holding”in əməkdaşları da öz növbəsində onlara hədiyyələr və məktəb ləvazimatı bağışlayıb.



Layihə növbəti aylarda regionun digər ucqar kəndlərində da davam etdiriləcək.

# “Arzum Bakıda gənclərə animasiya dərsləri verməkdir”

## Məsud Pənahi: “Adil İsgəndərov “Tıq-tıq xanım və Siçan bəy”in bütün heyətini kinostudiyada işə götürmüşdü”

Tanınmış animasiya rejissoru və rəssamı Məsud Pənahi. O, Cənubi azərbaycanlı yazıçı, Təbrizdə Milli hökumətin qurulmasında və fəaliyyətində mühüm rol oynamış Pənahi Makulunun (1900-1971) yadigarıdır. Animasiya sahəsində çoxsaylı uğurlara imza atıb. 1979-cu ildən Almaniyada yaşayan sənətkar bu günlərdə paytaxtımızda keçirilən 6-cı “Animafilm” Beynəlxalq Animasiya Festivalının qonaqları arasında idi. Bu il 80 illiyini qeyd edən Məsud müəllim daha çox “Tıq-tıq xanım və Siçan bəy” (1974) cizgi filmi ilə məşhurdur. Onunla elə festival zamanı həmsöhbət olduq.

*– Bakıya tez-tez gəlirsiniz?*

– Son illər animasiya festivalına görə, demək olar ki, hər il Azərbaycana gəlirəm. Festivala dəstək olmaq istəyirəm. Çalışıram ki, imkanım qədər gəncləri animasiya ilə məşğul olmağa cəlb edim. Birinci festivalda maraqlanan az idi. İndi gördüyünüz kimi, həm festivalın açılışına çoxsaylı insanlar qatıldı, həm də gənclərin animasiya sahəsinə marağı artıb. Qıraqdan baxanda görmək olur ki, bu tələbdir və lazımlı fəaliyyətdir.

*– Animasiyamızda sizin adınız hər zaman ön sıralardadır. Vaxtilə lentə aldığınız “Tıq-tıq xanım və Siçan bəy” cizgi filminə olan maraq heç də azalmır. Bu filmin uğuru nədədir?*

– Filmi çəkəndə onun belə uğur qazanacağını düşünməmişdim. Əsas məqsədim bu nağılı müasir dövrə uyğun lentə almaq idi. Xalq musiqisini, xalq oyununu yeni bir formada təqdim etmək istəyirdim. Ona görə də filmdə xalq musiqisi ilə yanaşı, rəhmətlik Vaqif Mustafazadənin də musiqisinə yer vermişəm. Ramiz Rövşən isə mahnı mətni yazıb. Bu film Ramiz Rövşənin film sahəsində debütü də sayıla bilər. O zaman yalnız gənclərlə işləmək istəyirdim. Vaqif Mustafazadənin təklifi ilə “Sevil” vokal qrupu üzvlərindən birinin səsini yazdım. Filmdə sevilən aktrisamız Zemfira İsmayılovanın, rəhmətlik rejissorlar Arif Babayevin və Adil İsgəndərovun (toybəyi) səsi yer alıb.

*– Həmin dövrdə bizdə animasiya elə də populyar olmayıb...*

– Bəli, zəif idi. Mən animasiyaya başlayanda bu sahədə rəsmdən istifadə, demək olar ki, yox idi. İstəyirdim rəsm filmi olsun. İlk rəsm filmi 1973-cü ildə çəkdiyim “Bulud niyə ağlayır?” ekran işi idi.



1974-cü ildə Bakıda VII Ümumittifaq Kinofestivalında filmə birinci mükafat verildi. Onu da deyim ki, Adil İsgəndərov “Tıq-tıq xanım və Siçan bəy”in bütün heyətini o vaxt bütünlükdə kinostudiyada işə götürmüşdü. Çünki bu heyət cizgi filmi üçün yaxşı ixtisaslaşmış komanda idi. Daha sonra mən rejissorluqdan əlavə, təşkilati işlərlə də məşğul olmağa başladım. Bizdən üç gənc xanım Kiyevə, üç gənc oğlan isə Moskvaya “Soyuzmultfilmə” animasiya üzrə təhsil almağa göndərildi. Mütəxəssis baxımından Moskvadan asılı olmaq istəmirdim. Belə də oldu. Onlar oxuyub gəldilər və artıq bizim öz mütəxəssislərimiz vardı. Zaman elə gətirdi ki, mən Almaniyaya getməli oldum. Və artıq uzun illərdir Almaniyada yaşayıram.

*– Getməyinizə nə səbəb oldu?*

– Kimsə deyə bilər ki, mən maddi vəziyyətə görə getmişəm. Xeyr, o zaman burada da imkanım pis deyildi. Bakıda sonuncu filmim “Qız qalası” oldu. Fikrim var idi ki, bu məşhur mövzudan film çəkim və o qız Azərbaycanın bütövlüyünün simvolu olsun. “Qız qalası” mənim üçün vacib film idi. Əslində, göstərmək istəyirdim ki, düşmən yanımızdadır. Bu, Azərbaycan animasiyasında ilk 18 dəqiqəlik rəsm filmidir.

*– Bu gün Azərbaycanda animasiyanın inkişafı üçün nələr çatışmır?*

– Düşünürəm ki, bu sahəni maddiyyatı güdmədən gənclərə təbliğ etmək, öyrətmək lazımdır. Bizdə istedadlı gənclər var, lakin onları öyrətməyə mütəxəssislər yoxdur. Gəncləri düzgün yönəltmək, sənətin sirlərini öyrətmək lazımdır.

*– Bəs müasir dünya animasiyasındakı yeniliklərə münasibətiniz necədir?*

– Zaman var idi, nənə otururdu kürsünün qırağında uşaqlara nağıl danışırdı. Nağıllar zamanla keçdi kitaba. Sonra yavaş-yavaş animasiyaya. Sonra kino oldu. İndi animasiya çox inkişaf edib. Bu gün elə bir sənət yoxdur ki, orada animasiya olmasın. Dünyada binaların inşasından tutmuş istənilən sahəni animasiya əhatə edir. Binanın layihəsi, yaxud kosmosa uçuş və s. bunların nümayişi də animasiyadır. Ona görə də animasiyada yeniliklər, fantaziyalar yaranıb.

*– Kompüter qrafikası ilə işlənmiş oxşar personajlı cizgi filmlərinə uşaqların marağı daha azdır. Rəsm animasiyası isə daha cəlbedicidir...*

– Kompüter qrafikası oyun animasiyasıdır. Mən Bakıda çalışanda bir film üzərində 40-dan çox adam işləyirdi. 10 dəqiqəlik bir filmi 8 aya başa gətirirdik. İndi texnologiya, sistem tamam dəyişilib. Texnika insanların əməyinin bir hissəsini əvəz edib. Eyni zamanda animasiya sahəsində də vəziyyət belədir. Məsələn, əlin aşağıdan yuxarı qalxması prosesində aradakı məsafəni vermək üçün bir neçə faza çəkilirdi. Daha sonra rəngləmək, indi bütün bunlar ixtisara düşüb. Kompüterdə komanda verirsən, hamısını özü rəngləyir. Ancaq rəsm sənəti əsasdır...

*– O zaman ildə neçə animasiya filmi istehsal olunurdu?*

– İldə 4-5 film çəkilirdi. O vaxt maliyyə ayrılırdı. Bu gün animasiya ilə məşğul olmağı düşünürsənsə, ilk növbədə, xaricdə animasiya bazarının tələbini öyrənməlisən. Bunu öyrənmədən, öz ideyanla heç nə əldə edə bilməyəcəksən...

*– Bir qədər də Almaniyadakı fəaliyyətinizdən danışaq.*

– Orada 7 il məktəbdə işlədim. İl yarım digər kino məktəbində animasiyadan dərs dedim. 15 il Berlin Mərkəzi Telestudiyasında və müxtəlif animasiya studiyalarında çalışdım və 60-dan çox animasiya filmi ərsəyə gətirdim. Bundan əlavə, müxtəlif animasiya studiyalarında da çalışırdım. Daha sonra evdə çalışmağa başladım. Həyat yoldaşım ağır xəstə olduğu üçün ona baxmalı idim. Bu müddətdə “Rezin xoruz” adlı avtobioqrafik kitabımı yazdım, 2020-ci ildə Berlin şəhərində nəşr olundu. Bakıdan festivala dəvət olunanda həmin kitabdan da gətirməyi xahiş etdilər. Gətirib iştirakçılara payladım. Almaniyaya qayıdıb ustad dərslərinə başlayacağam. Əvvəllər intensiv gedirdim, amma indi yaşımla bağlı azaltmışam. Arzum Bakıda gəncləri bir yerə yığıb onlara üç ay müddətində animasiya dərsləri keçməkdir.

*– Məsud müəllim, gələn il “Tıq-tıq xanım və Siçan bəy”in 50 yaşı olacaq.*

– Bəli, bu filmin 50 illiyi tamam olacaq. Ümidvaram ki, bizim animasiya da inkişaf mərhələsinə qədəm qoyacaq. Bunun üçün, ilk növbədə, tələb və düzgün hesablanmış auditoriyaya diqqət etmək lazımdır. Mütləq ilkin addımları atmaq lazımdır. Gənc rejissor Nəzrin Ağamalıyevanın “Hədis” animasiya filmi dünyanın ən böyük animasiya festivalı olan Annecy festivalında iştirak edib. Film 25-dən çox beynəlxalq festivala qəbul olunub ki, onlardan üçü – Annecy, Busan və “Animest” Oskar standartlı festivallardır. Yəni əsas şərt o deyil ki, qalib olasan. Əsas orada iştirak etməkdir. Biz fəxr etməliyik ki, əziyyətimiz boşa getməyib.

*– Maraqlı müsahibəyə görə təşəkkür edirəm.*

**L.Azəri**

# Maestro haqqında xatirələr ilk dəfə Azərbaycan dilində

Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində sentyabrın 25-də BMA-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkilatçılığı ilə “Niyazi xatirələrdə” kitabının təqdimat mərasimi olub.



Təqdimatda əvvəlcə Ulu öndər Heydər Əliyevin Niyazinin 90 illik yubileyində görkəmli sənətkar haqqında çıxışının videoyazısı nümayiş etdirilib.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova çıxışı zamanı Azərbaycanda Milli Musiqi Günü ərəfəsində yenicə nəşr olunmuş “Niyazi xatirələrdə” kitabının musiqi ictimaiyyəti və musiqisevərlər üçün bir töhfə olduğunu qeyd edib. Bildirilib ki, bu nəşrdə Niyazi haqqında 1987-ci ildə rus dilində işıq üzü görən “Maestro Niyazi. Xatirələr, məqalələr, məktublar” kitabının (tərtibçilər Həcər Hacıbəyova və Əsildar Hüseynov) “Xatirələr” bölməsinin rus dilindən ilk dəfə tərcüməsi təqdim olunur. Kitab Niyazinin şəxsiyyəti, yaradıcılığı və ümumilikdə XX əsr Azərbaycan musiqi mədəniyyəti ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Kitabda xatirələri yer alan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar görkəmli sənətkarın ömür və sənət yolunun maraqlı məqamları haqqında məlumat verib. Bildirib ki, ölkəmizdə milli dirijorluq məktəbinin formalaşması Niyazinin adı ilə bağlıdır.

BMA-nın professoru, Xalq artisti Xuraman Qasımova və Azərbaycan Bəstəkarlar İttifaqının katibi Əməkdar incəsənət xadimi Zemfira Qafarova sənətkarın həyat və yaradıcılığından söz açıblar. Niyazinin bütün həyatı boyu Azərbaycan musiqisində yaranmış yeni əsərlərin təbliğində, beynəlxalq aləmdə şöhrət qazanmasında müstəsna xidmətlər göstərdiyi vurğulanıb.

Çıxışlar muzeyin zəngin kolleksiyaları əsasında hazırlanmış videoçarxla müşayiət olunub. Təqdimat Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət zəngin konsert proqramı ilə davam edib.

Sonda Niyazinin qohumu Sahib Qədimov tədbirin təşkilində əməyi keçən hər kəsə təşəkkür edib.

# “Quatuor Diotima” kvartetindən “Süleymani” rəqsi

Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində sentyabrın 25-də Beynəlxalq Muğam Mərkəzində Fransanın “Quatuor Diotima” kvartetinin çıxışı oldu.

Kollektiv bu gün dünyada ən çox tələb olunan kamera ansambllarından biridir. 1996-cı ildə Paris Milli Konservatoriyasının məzunları tərəfindən yaradılan ansamblın üzvləri Yun-Peng Zhao, Leo Marillier, Franck Chevalier və Pierre Morlet müntəzəm olaraq dünyanın ən yaxşı konsert salonlarında və festivallarında çıxışları ilə diqqət çəkir. Kvartet Üzeyir bəyin adını daşıyan mötəbər festivala da xüsusi proqramla gəlmişdi. G.Ligeti, L.Janacek və L.Bethovenin əsərlərini ustalıqla təqdim edən kvartetin çıxışı tamaşaçılar alqışlarla qarşıladı.

“Quatuor Diotima” konsertin finalı üçün Üzeyir Hacıbəyli yaradıcılığına müraciət etdilər. Gözlənilməz və heyrət dolu bir təqdimat. Kvartetin ifasında “Süleymani” rəqsi. Bu da ifaçıların dahi Üzeyir bəyə və ümumilikdə, musiqi mədəniyyətimizə bir minnətdarlıq jesti idi. Onlar bu məşhur rəqsimizi böyük ustalıqla təqdim edə bildilər. Auditoriya ifanı sürəkli alqışlarla mükafatlandırdı. Üzeyir Hacıbəyli festivalı çərçivəsində daha bir yaddaqalan gecə bu musiqi bayramının tarixinə öz imzasını qoymuş oldu...



Musiqişünas, Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə kvartetin ifasını belə şərh edir: “Bethoven öz kvartetlərində bir başqa – romantik, duyğusal, gözəlliklər yaradıcısıdır. Kvartetin dramaturji mərkəzi ağır, ləng, düşüncələrlə doludur. Bu musiqini qavramaq üçün ona varmaq gərək. Janacekin simli kvarteti isə tam başqa bir aləmdir”.

**Lalə**

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi




Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (65)

### 1996-cı il 13 sentyabr

Prezident Heydər Əliyev Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə görkəmli ədəbiyyatşünas Salman Mümtazın (daha öncə Əlyazmalar İnstitutu onun adını daşıyırdı – red.), Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna dahi Azərbaycan şairi Məhəmməd Füzulinin adının verilməsi haqqında sərəncamlar imzalayıb.

“Füzuli ensiklopediyası”nın hazırlanması və nəşr edilməsi ilə bağlı sərəncam imzalayıb.

### 1996-cı il 18 sentyabr

Görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin 110 illiyinə həsr olunmuş yubiley gecəsində çıxış edib.

*“...Biz Müslüm Maqomayevin 110 illik yubileyinin keçirilməsində bir qədər gecikmişik, ancaq hesab edirəm ki, onu layiqincə qeyd etdik... Siz, sənət ustaları həm bizim görkəmli bəstəkarlarımızın yaradıcılığını, həm də öz yaradıcılığınızı nümayiş etdirdiniz.*

*...Mən Moskvadan, Kiyevdən gələn qonaqlarımıza xüsusilə minnətdaram. Onların Müslüm (Maqomayev) və Tamara (Sinyavskaya) ilə birlikdə buraya gələrək bu konsertə rövnəq vermələrini əlamətdar nailiyyət hesab edirəm. Hamımızın ayrıldığı, müstəqil dövlətlərə çevrildiyi indiki vaxtda bu, qeyri-adi hadisədir. Görün, tamaşaçılarımız sizin hamınızı necə qarşıladılar...*

*Müslüm və Tamara “Azərbaycan” mahnısını ifa edəndə mən iftixar hissi keçirdim ki, bu mahnı 70-ci illərdə, mən Azərbaycana rəhbərlik edəndə, respublikamızı tanıtmaq, Azərbaycanın incəsənətini göstərmək üçün hər şeyi etdiyim vaxt yaranmışdır. Azərbaycanı tərənnüm edən başqa gözəl mahnılar, o cümlədən Polad Bülbüloğlunun bəstələdiyi və Müslüm Maqomayevin ifasında xüsusilə yaxşı səslənən mahnılar da var idi. Lakin yenə mahnılar gərək idi və Müslüm Maqomayev Nəbi Xəzrinin şeirinə həmin “Azərbaycan” mahnısını bəstələdi. Mən ümumiyyətlə, hissiyyatlı adamam, musiqi, mahnılar məni həmişə həyəcanlandırır. Lakin o zaman ki, bu mahnını ifa edirlər, mən özümü xoşbəxt sanıram.*

*Musiqimizin ağsaqqalı Tofiq Quliyev həmişəki kimi bu gün də gözəl çıxış etdi. Mən onu görəndə həmişə sevinirəm... Rauf Abdullayev bu gün fərqlənirdi, orkestri çox yaxşı idarə edirdi... Bilirsiniz, əgər burada hər birinizdən söhbət açsam, onda sizin tərcümeyi-halınızı özünüzdən daha yaxşı danışaram. Hamınız gözəl, əla çıxış etdiniz...*

*...Çətinliklərə baxmayaraq, mədəniyyətimiz yaşayır. Yaxın vaxtlarda mən mədəniyyət xadimlərinə kömək göstərilməsi üçün tədbirlər görəcəyəm. İndiki çətin şəraitdə mədəniyyət və incəsənət xadimlərimizin öz işlərini fədakarlıqla davam etdirmələri isə məni çox sevindirir...”.*

### 1996-cı il 4 oktyabr

Xalq yazıçısı İlyas Əfəndiyevin dəfn mərasimində iştirak edib.

### 1996-cı il 22 oktyabr

Türkdilli ölkələrin dövlət başçılarının dördüncü Zirvə görüşündə iştirak etmək üçün Daşkəndə səfəri zamanı “Teymurilərin tarixi” dövlət muzeyində, Səmərqənddə Əmir Teymurun məqbərəsində və “Registan” tarixi kompleksində olub.

Zirvə görüşündəki nitqindən: *“...Dahi mütəfəkkirlərimizin yaradıcılığı, “Dədə Qorqud”, “Manas”, “Alpamış” kimi minillik tarixə malik eposlarımız bizim ümumi mədəni sərvətimizdir, xalqlarımızın yüksək mənəviyyatının təməlidir... Daşkənd görüşümüz özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyi ilə bir vaxta düşür. Yubiley mərasimlərində müstəqil türkdilli dövlətlərin prezidentlərinin iştirakı əlamətdar tarixi hadisədir, getdikcə möhkəmlənən birliyimizin sübutudur...”.*

### 1996-cı il 23 oktyabr

Bakıda MDB və Baltika ölkələrinin “Filmfest – 96” festivalının açılış mərasimindən sonra iştirakçılarla görüşdə çıxış edib.

### 1996-cı il 29 oktyabr

Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılış mərasimində nitq söyləyib.

*“Burada çıxış edən şəxslər Hüseyn Cavidin yaradıcılığı haqqında, Azərbaycan xalqı qarşısında onun xidmətləri haqqında ətraflı danışdılar... Məhz bunlara görə də biz 1981-ci ildə Hüseyn Cavidin 100 illik yubileyi haqqında böyük bir qərar qəbul etdik. Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, mən bu qərarın həm təşəbbüskarıyam, həm də müəllifiyəm...*

*Burada deyildi, 1982-ci ildə Hüseyn Cavidin cənazəsini Uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. O vaxt Hüseyn Cavidin cənazəsini Azərbaycana gətirərkən müxtəlif fikirlər var idi. Yazıçılarımız, alimlərimiz, ziyalılarımız fikir mübadiləsi apardılar. Onlar qərar qəbul etdilər. Bu, mənim də qərarım idi ki, cənazə Naxçıvana gətirilsin... O məqsədlə ki, bu, adi qəbir olmayacaq. Qəbirin üzərində məqbərə tikiləcək və bu, böyük bir abidəyə çevriləcəkdir.*

*Belə fikirlərlə, arzularla o vaxt biz bu qərarı qəbul etdik. Təəssüflər olsun ki, bunu sonrakı illərdə həyata keçirmək mümkün olmadı...*

*...Nəhayət, biz böyük bir abidənin önündə durmuşuq, bayram edirik. Bu gün böyük iftixar hissi ilə bu abidəni birlikdə açmağa gəlmişik...*

*Naxçıvanda böyük memarlıq abidələrimiz var. Bu abidə də həmin ənənələrin davamıdır... Bu abidəni yaradanlara, inşası ilə məşğul olanlara təşəkkür edirəm. Memar Rasim Əliyevə, heykəltaraş Ömər Eldarova, “Star” şirkətinə təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, memarlarımız, rəssamlarımız, heykəltaraşlarımız, mədəniyyət xadimlərimiz Azərbaycan mədəniyyətini bundan sonra da inkişaf etdirəcəklər...”.*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

## Vətən müharibəsində düşmənin müdafiə xəttini ilk keçənlərdən...

O, iki bacının tək qardaşı idi. Uşaq yaşlarından müqəddəs bir amalı vardı. Səbirsizliklə düşməndən qisas alacağı günü gözləyirdi. Ana Vətənə olan sevgisi o qədər güclü idi ki, məhz son nəfəsini də bu müqəddəs amal uğrunda vermişdi...



Ölkəmizin ərazi bütövlüyünün bərpa olunması ilə başa çatan 2020-ci ilin Vətən müharibəsi şəhidlərindən Busat Qurbanov haqqında söz açırıq.

Busat Əfsər oğlu Qurbanov 2000-ci il sentyabrın 10-da Füzuli rayonunun Aşağı Kürdmahmudlu kəndində anadan olub. 2018-ci ildə həmin kənddə orta məktəbi bitirərək hərbi xidmətə yollanıb. Naxçıvan Muxtar Respublikasında N saylı hərbi hissədə xidmət keçib. Əsgərlik dövründə nümunəvi xidmətinə görə fəxri fərman və təşəkkürnamə ilə mükafatlandırılıb.

Hərbi xidmətini başa vurduqdan sonra hərbçi libasını ömürlük geyinmək qərarına gəlir. Çünki ağlı kəsəndən doğma rayonunun bir hissəsinin və Qarabağımızın işğaldan qurtarılmasının, düşməndən qisas alınmasının xəyalını qururdu. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Füzuli rayonundakı N saylı hərbi hissədə tank atıcısı vəzifəsində xidmətə başlayır.

2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində Busat və cəsur hərbçi yoldaşları düşmən səngərini keçən ilk döyüşçülərdən olublar. Busat Vətən müharibəsinin ilk günündə Cəbrayıl rayonunun Nüzgar kəndinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhid olub. Oktyabrın 10-da doğulduğu Aşağı Kürdmahmudlu kənd qəbiristanlığında torpağa tapşırılıb.

Şəhidin atası Əfsər Qurbanov oğlu ilə hər zaman fəxr etdiyini bildirir: “Busat uşaq yaşlarından vətənpərvərlik hissi ilə böyümüşdü. O, torpaqlarımızın düşmən əsarətində olması ilə heç cür barışa bilmirdi. Deyirdi ki, vaxt gələcək torpaqlarımızı yağı düşməndən azad edəcəyik. O, Vətən müharibəsinin ilk günü şəhidlik zirvəsinə ucaldı. Oğlumun ruhu şaddır. Çünki torpaqlarımız düşməndən azad edilib. Allah bütün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa versin. Vətən sağ olsun!”.

Şəhidin bacısı Aysu Qurbanova qardaş itkisinin ağır dərd olduğunu söyləyir: “Busat canından çox sevdiyi Vətən yolunda şəhid oldu. Cismən aramızda olmasa da, qardaşımın ruhu daima bizimlədir. Mən Busatla hər zaman fəxr edirəm”.

Busat Qurbanov ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilib.

Qeyd edək ki, ötən ilin iyul ayında şəhidin xatirəsinə doğulduğu Aşağı Kürdmahmudlu kəndində bulaq-abidə inşa edilib.

Allah rəhmət eləsin.

**Nurəddin**

## “Zəfər yolçuları” və “Qızılgüllərin ətri”

### Yazıçı-publisistin Anım Gününə töhfəsi



Ön cəbhədə ölümün gözünün içinə baxaraq düşmənlə döyüşmək böyük hünərdir. Vətən övladlarının şücaətindən yazmaq, onların taleyini izləmək, igidləri yazılı sözün qüdrəti ilə tanıtmaq da az iş deyil. Əgər bu tanıtım təkcə doğmalarının anlayacağı dildə yox, sayımızdan dəfələrlə böyük toplumların başa düşdüyü dildə aparılırsa, o zaman elə əməlin özü də hünər məqamına yetişir...

27 sentyabr – Anım Günü ərəfəsində tanınmış yazıçı-publisist, Əməkdar jurnalist Zemfira Məhərrəmlinin Qarabağ uğrunda savaşmış igidlərimizə həsr olunmuş iki kitabı təqdim edildi. Kitablardan biri – “Zəfər yolçuları” İstanbulda Türk Ədəbiyyatı Vəqfinin “Turay” nəşriyyatında türkcə nəşr edilib. İngilis dilinə çevrilmiş “Qızılgüllərin ətri” (The scent of roses) isə Bakıda “Mütərcim” nəşriyyatında çapdan çıxıb.

Zemfira xanım ötən əsrin 90-cı illərindən başlayaraq Qarabağ mövzusunu öz yaradıcılığının əsas istiqaməti seçib. Müəllifin indiyədək çap olunmuş 17 kitabının əksəriyyəti Qarabağ uğrunda canından keçmiş şəhidlərimizə, müharibə iştirakçıları və qazilərimizə həsr olunub.

“Zəfər yolçuları” kitabında Qarabağ savaşının ilk günlərindən 44 günlük Vətən müharibəsinədək keçən təxminən otuz üç il ərzində işğal illərində yaşadığımız iztirablar, ərazi bütövlüyümüz uğrunda mücadiləmiz, şəhidlərimizin savaş hünəri, böyük Zəfərimizə həsr olunmuş bədii və sənədli hekayələr toplanıb. Kitabı Türkiyə türkcəsinə yazıçı, şair-publisist İmdat Avşar çevirib. “Zəfər yolçuları” müəllifin Türkiyədə nəşr olunmuş üçüncü kitabıdır.

Zemfira Məhərrəmlinin ingilis dilində ikinci kitabı olan “Qızılgüllərin ətri” də Qarabağ savaşı silsiləsinin məntiqi davamıdır. Kitabı ingilis dilinə yazıçı-tərcüməçi Kamran Nəzirli çevirib.

Azərbaycan Yazıçılar Birliyinin “Natəvan” klubunda keçirilən təqdimat mərasimində öncə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli, tənqidçi Bəsti Əlibəyli, “Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadə, Əməkdar jurnalistlər Bahəddin Həzi, Əntiqə Qonaq, yazıçı-tərcüməçi Kamran Nəzirli, şairlər Nəzakət Məmmədli, Rəfail Tağızadə, hərbi jurnalist Vahid Məhərrəm və başqaları iştirak edirdilər. Zemfira xanımın Qarabağ müharibəsindən yazmağa başladığı dövrdən dostlaşdığı şəhid ailələrinin üzvləri, qazilər də təqdimat mərasiminə fəxri qonaq qismində qatılmışdılar.

**Gülcahan Mirməmməd**

# Krımlı arxeoloq alimimiz

### Osman Həbibullayev – 110

Azərbaycanda arxeologiya elminin inkişafına töhfələr verən qardaş türk xalqları alimlərini xatırlayarkən ilk yada düşənlərdən biri də Krım tatarı Osman Həbibullayevdir. O, Qobustan, Mingəçevir, Naxçıvan, Örənqala arxeoloji ekspedisiyalarında çalışıb, mühüm tarixi əhəmiyyətli nümunələr üzə çıxarıb.

Osman Həbibulla oğlu Həbibullayev 28 sentyabr 1913-cü ildə Krım vilayətinin Bağçasaray şəhərində müəllim ailəsində anadan olub. Kiçik yaşlarında valideynlərini itirir və uşaq evinə verilir. İbtidai təhsilini də uşaq evində alır. Müəllimləri onda kitaba, elmə maraq oyadırlar.

Osman Həbibullayev Bağçasarayda ibtidai təhsilini başa vurduqdan sonra, Simferopol şəhərində yaşayan uzaq qohumlarının yanına gedir, orada orta təhsilini başa vurduqdan sonra bir müddət uzaq kəndlərin birində müəllim işləyir. Ancaq ali təhsili olmadığı üçün bu işdən ayrılır. Fəhləlik edir və çilingər, maşınçı və s. işlərdə çalışır.

II Dünya müharibəsi ərəfəsində Osman Həbibullayev Bakıya, buradan da Naxçıvan şəhərinə gedir. Bu qədim şəhər ilk gündən onu özünə heyran edir. O, əvvəlcə Vilayət Partiya Komitəsində texniki katib vəzifəsində işə düzəlir. Sonra isə komitənin kitabxanasına rəhbərlik edir. Eyni zamanda müəllimlər kursuna yazılır. Müəllimlər kursunu başa vurduqdan sonra orta məktəbdə müəllim işləyir.

II Dünya müharibəsi zamanı könüllü olaraq cəbhəyə gedir. Bir müddət Şimali Qafqazda vuruşur. Müharibə onu doğma Krım torpağına gətirib çıxarır. O, yurdunun faşistlərdən azad edilməsində yaxından iştirak edir. Ağır döyüşlərdə üç dəfə yaralanır. O.Həbibullayev çox gənc ikən sağlamlığını itirir və ordudan tərxis edilir. Cəbhədən Bakıya qayıdır və Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinə qəbul olunur. Tələbə ikən Azərbaycan EA-nın (indiki AMEA) Tarix İnstitutunda işə başlayır. Təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra institutun Arxeologiya şöbəsində Azərbaycanın qədim maddi mədəniyyət abidələrini, zəngin keçmişini öyrənmək üçün böyük səy göstərir, çöl tədqiqatlarında iştirak edir. Az vaxt içərisində Qobustan, Mingəçevir, Örənqala arxeoloji ekspedisiyalarında yaxından iştirak edir. Qısa müddətdə böyük uğurlara imza atır. Elmi axtarışlar nəticəsində nəinki Azərbaycanda, hətta bütün Qafqazda uzaq Mis dövrünə aid yaşayış yerinin



qalıqlarını ilk dəfə aşkara çıxarır. Təsadüfi deyil ki, Qafqazda Mis dövrünün ilk tədqiqi O.Həbibullayevin adı ilə bağlıdır. Araşdırmalarda qeyd edilir ki, o, Naxçıvanda Babək rayonu ərazisindəki 7 min yaşı olan Kültəpə yaşayış yerindən yüzlərlə əmək aləti, gil qab, ən qədim mis əşya, silah və bəzək nümunələri aşkar edib. Onun açdığı çiy kərpic və möhrədən dairəvi şəkildə inşa edilən tikintilər Azərbaycan ərazisində üzə çıxarılan ən qədim yaşayış evləri olub. O.Həbibullayev Kültəpə abidəsində 21 metr qalınlığında mədəni təbəqə müəyyən edib. Mis-tunc dövrünə aid bu təbəqənin dərin laylarından xeyli qədim maddi mədəniyyət nümunəsi aşkara çıxarılıb. Alimin Kültəpədə aşkar etdiyi tapıntıların ikinci hissəsi Cənubi Qafqaz arxeologiyasında mühüm yer tutan “Kür-Araz mədəniyyəti”nə (İlk Tunc dövrü) aid edilib.

Kültəpə tədqiqatları əsasında O.Həbibullayev onlarca elmi əsər yazıb. Bu əsərlərdə Azərbaycanın qədim tarixinin bir sıra qaranlıq guşəsinə işıq salınıb. Eyni zamanda bu tədqiqatlar ölkəmizdə və xaricdə mütəxəssislərin böyük marağına səbəb olub. Alim 1959-cu ildə Kültəpə tədqiqatları əsasında elmlər namizədi (fəlsəfə doktoru) dissertasiyasını müdafiə edib.

O.Həbibullayevin Naxçıvan ərazisindəki tədqiqatları Kültəpə abidəsi ilə məhdudlaşmır. O, həmçinin 1969-cu ildə Qızılvəngdə Tunc dövrünə aid böyük bir yaşayış yerinin qalıqlarını aşkar edir. Daha sonra Naxçıvan ərazisində yeni bir abidədə – II Kültəpədə tədqiqatlara başlayır. Bu araşdırmalar haqqında 7 fəsildən ibarət olan sanballı monoqrafiyasını ölümündən bir müddət öncə başa çatdırsa da, elmi əsərin nəşrini görmək ona müyəssər olmur. Monoqrafiya 1982-ci ildə işıq üzü görür.

Tanınmış arxeoloq-alim 9 sentyabr 1970-ci ildə dünyasını dəyişib.

**Savalan Fərəcov**

# Göygöl rayonunda arxeoloji tədqiqatlara yenidən başlanılıb



AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Müzəffər Hüseynovun rəhbərliyi ilə Göygöl rayonu ərazisində uzun fasilədən sonra yenidən arxeoloji tədqiqatlara başlanılıb.

AMEA-dan bildirilib ki, tədqiqat işləri Göygöl-Topalhəsənli yolunun sol tərəfində, yoldan 120 metr məsafədə 5 metrə yaxın hündürlüyü olan kiçik təpənin üzərində yerləşən kurqanda həyata keçirilib. Torpaq örtüklü kurqanın diametri 22 metr, hündürlüyü 1,5 metrdir. Kurqanda maraqlı dəfn adətləri qeydə alınıb. Burada kurqan örtüyü götürüldükdən sonra 2,2x2,4 metr ölçüdə, 1 metr dərinliyi olan əsas kurqanaltı kamera yerləşir. Əsas kamera Son Tunc-Erkən Dəmir dövrünə aiddir. Digər maraqlı cəhət isə vaxtilə kurqanın yerləşdiyi təpədə Erkən Tunc dövrünə aid torpaq qəbrin salınmasıdır. Son Tunc-Erkən Dəmir dövrü kamerası torpaq qəbrin bir hissəsini kəsdiyi üçün məzarın bu hissəsi dağıntıya məruz qalıb. Torpaq qəbrin kurqan qurulmazdan əvvəl salındığı müşahidə edilib. Əsas kurqanaltı kameradan başqa, kurqan örtüyündə sonradan erkən müsəlman dövrünə aid 10 ədəd katakomba tipli sapma qəbirlər salınıb. Sapma qəbirlərin üzərinə bir cərgə uzunsov çaydaşı düzülüb. Beləliklə, torpaq örtüklü kurqanda torpaq qəbir, qəbir kamerası və 10 sapma qəbir aşkarlanıb.

Qeyd edək ki, Azərbaycan ərazisində kurqan tipli abidələrə ən çox rast gəlinən bölgələrdən biri Göygöl rayonudur. İndiyədək Gəncəçayın hər iki sahilində, kiçik təpələr üzərindəki düzənlik sahədə yüzlərlə kurqan qeydə alınıb və bir qismi bu ərazidə məskunlaşmış almanəsilli şəxslər tərəfindən XIX əsrin sonları və XX əsrin əvvəllərində tədqiq edilib. Tədqiqatçılar içərisində Y.Hümmelin (1941-ci ildə Qazaxıstana sürgün edilib) XX əsrin 20-30-cu illərində burada çoxsaylı kurqanlarda apardığı arxeoloji qazıntı işləri elmi cəhətdən özündən əvvəlki mütəxəssislərin tədqiqatlarından köklü şəkildə fərqlənməklə Azərbaycanın qədim tarixinin öyrənilməsində müstəsna əhəmiyyət kəsb edir.

# Şəxsi kitabxanasında 11 min nüsxədən çox nəşr var...

### Məhəmməd İsayev: “Atamın 1930-cu ildə yaratdığı kitabxananı qoruyub saxlayır, fondunu zənginləşdiririk”

**“Mədəniyyətə könül verənlər”**

Tariximizi, mənəvi sərvətlərimizi qoruyub saxlayan, nəsildən-nəslə ötürən məbədlərdən biri də kitabxanalarımızdır. Ta qədim zamanlardan böyük şəhər və elmi mərkəzlərin kitabxanaları ilə yanaşı, bir çox dahi mütəfəkkirlərin şəxsi kitabxanaları da olub. Tarixə məlum olan ilk şəxsi kitabxana Assuriya hökmdarı Aşşurbanipala məxsus imiş. Nineviya şəhərində (indiki İraq ərazisi) yerləşən həmin kitabxanada hökmdarı maraqlandıran müxtəlif tipli kitablar saxlanılırdı.

Azərbaycan tarixinə gəlincə isə, Bəhmənyar, Xətib Təbrizi, Əbu Vəfa, Qətran Təbrizi, Nizami, Xətai və s. kimi görkəmli şair və alimlərin şəxsi kitabxanalarının olması haqqında məlumatlar mövcuddur.

XIX əsrin 40-cı illərindən başlayaraq Azərbaycanda yeni milli ictimai kitabxanalar, habelə bir çox görkəmli simaların şəxsi kitabxanaları yaranır. Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundzadənin kitabxanalarını buna misal göstərmək olar.

Bu gün də kitaba böyük maraq göstərən, evini kitabxanaya çevirən insanlar var. “Mədəniyyətə könül verənlər” rubrikasının budəfəki qonağı yuxarıda qeyd etdiyimiz xeyirxah əməli, qiymətli ənənəni davam etdirənlərdən Məhəmməd İsayevdir.



Məhəmməd Hüseyn oğlu İsayev 1957-ci il iyunun 26-da Hacıqabul şəhərində anadan olub. Hacıqabul şəhər 7 nömrəli orta məktəbdə təhsil alıb. Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. 10 ilə yaxın Sabirabad və Hacıqabul rayonlarının orta məktəblərində dil-ədəbiyyat və ibtidai sinif müəllimi işləyib. 2004-2022-ci illərdə Hacıqabul Rayon Tarix-Diyarşünaslıq Muzeyində kiçik elmi işçi, baş fond mühafizi, direktor və rayon Heydər Əliyev Mərkəzində baş fond mühafizi vəzifələrində çalışıb. Hazırda təqaüddədir.

30-a yaxın kitabı işıq üzü görən Məhəmməd İsayev, rus dilindən tərcümə ilə məşğul olur. Eyni zamanda şəxsi kitabxanasında fəaliyyətini davam etdirir.

Müsahibim qeyd edir ki, kitabxanasının əsası atası mərhum Hüseyn İsayev tərəfindən 1930-cu illərdə qoyulub: “Atam kitabları çox sevirdi. Şəxsi kitabxana yaratmaq fikri də məhz bu sevgidən irəli gəlmişdi. Kitabxananı atam hələ orta məktəbdə oxuyarkən Hacıqabul şəhərində evimizin bir hissəsində təşkil etmişdi. O, 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə daxil olduqdan sonra bu işlə daha sistemli şəkildə məşğul olub. Atam 1999-cu ildə vəfat etdikdən sonra mən, bacı və qardaşlarım atamızdan qalan bu xeyirxah ənənəni davam etdiririk”.

Məhəmməd müəllim deyir ki, hazırda kitabxananın ümumi fondu 11 mindən çox nüsxə kitabdan ibarətdir: “Kitabların bir hissəsini şəxsi vəsaitimiz hesabına almışıq. Bir neçə min nüsxə isə bizləri yaxından-uzaqdan tanıyan xeyirxah insanlar tərəfindən kitabxanamıza hədiyyə edilib. Rayon sakinləri, ziyalılar, elm adamları, müəllimlər, tələbə və şagirdlər kitabxanaya üz tutaraq buradakı ədəbiyyatlardan istifadə edirlər”.

Kitabxananın iş şəraiti haqqında məlumat verən müsahibim vurğulayır ki, elmi təsnifatla tərtib olunmuş və kartotekası olan kitabxanada bədii ədəbiyyata və ictimai elmlərə aid kitablar çoxluq təşkil etsə də, fondda təbiət elmlərinə də aid bir neçə min kitab saxlanılır: “Kitabxanadakı nəşrlərin yarıdan çoxu kiril əlifbası ilədir. Buna görə də əvvəlki illərə nisbətən rayon gəncləri kitabxanaya az-az üz tuturlar. Kitabxananın əsas oxucuları əsasən orta və yetkin yaşlı insanlardır. Onlar da oxumaq istədikləri kitabları həm kitabxanada, həm də istədikləri müddətə qədər öz evlərinə aparıb mütaliə edirlər”.

Məhəmməd müəllimin sözlərinə görə, kitabxanada yaxın-uzaq ölkələrdən müxtəlif dillərdə və əlifbalarda nəşr olunmuş, hətta XIX əsrin sonlarına və XX əsrin əvvəllərinə aid olan kitablar var: “Kitabxanamızda XIX əsrin əvvəllərindən bəri Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələrin şahidi olmuş “Murad xan”, “Kərbəlayı” təxəllüsü ilə yazan, Hacıqabulun Nəvahi kəndindən olan tanınmış satirik şair Mirzə Baxış Nadimin (1785-1880) əlyazmasının o vaxtlar əl ilə köçürülmüş surətləri və daşbasma üsulu (litoqrafiya) ilə çap olunmuş kitablar da mühafizə edilir. Bundan başqa, kitabxanada XIX əsrdə Avropa və çar Rusiyasında işıq üzü görən nadir kitab nüsxələri də saxlanılır”.

Müsahibim kitabxana fondunun bu gün də zənginləşdiyini söyləyir: “Qardaşlarımdan ikisi Rusiyada yaşayır. Böyük qardaşım hər dəfə Rusiyadan Vətənə gələndə özü ilə çoxsaylı kitablar alıb gətirir. Bundan savayı, özüm də şəxsi vəsaitim hesabına kitabxananın fondunu zənginləşdirməyə çalışıram”.

**N.Məmmədli**

# Klassik ədəbiyyatımızın görkəmli tədqiqatçısı

Görkəmli ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru, professor, akademik, Dövlət mükafatı laureatı Teymur Kərimli, ilk növbədə klassik ədəbiyyatımızın, istedadlı, məhsuldar tədqiqatçısı kimi tanınır. Onun klassik poetik mətnlərin mahir araşdırıcısı kimi yetişməsində bir neçə amil rol oynamışdır: əvvəla, Teymur müəllim özü də şairdir, yaradıcılığa şair kimi başlamışdır və buna görə də hər kəsdə olmayan şeiri duymaq qabiliyyətinə malikdir. İkincisi, uzun illər ərzində, "Elm" nəşriyyatının baş redaktoru işlədiyi dövrdə və sonralar T.Kərimli altıcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin bəzi cildlərinin məsul redaktoru, Füzuli əsərləri altıcildliyinin, "Molla Nəsrəddin" və "Füyuzat" jurnallarının kitab şəklində nəşrlərinin, Hüseyn Cavid külliyyatının beşcildliyinin və s. əsərlərin redaktoru olmuş, həmişə klassik mətnlərlə ünsiyyət saxlamışdır.

T.Kərimlinin elmi maraq dairəsinin çox geniş olduğunu xüsusilə qeyd etmək istərdik. O, Nizami, Nəsimi, Füzuli, Cavid, Şəhriyar və bir çox başqa klassiklərimizin, eləcə də çağdaş sənətkarlarımızın yaradıcılığına dair dəyərli tədqiqat işlərinin müəllifidir.

Teymur Həşim oğlu Kərimli 1953-cü il oktyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun ucqar dağ kəndlərindən və Kiçik Qafqazın ən uca zirvələrindən biri olan Qazangöldağın ətəyində, Nürgüd kəndində anadan olub. 1960-1964-cü illərdə Nürgüd ibtidai məktəbində oxuyan T.Kərimli təhsilini Sumqayıt şəhər 12 nömrəli orta məktəbində və Bakı riyaziyyat təmayüllü internat məktəbində davam etdirmiş, 1970-ci ildə orta məktəbi qızıl medalla bitirmişdir. 1975-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsini bitirdikdən sonra təyinat üzrə Kəlbəcər qəsəbə 2 saylı orta məktəbində Azərbaycan dili və ədəbiyyat, rus dili müəllimi kimi pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Sonra Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil almış, 1983-cü ildə "Nizamidə tarixin romantik qavrayışı ("Yeddi gözəl" poeması üzrə)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Onun 2003-cü ildə müdafiə etdiyi "Nizami yaradıcılığında tarixi şəxsiyyət və tarixi hadisə ideya-estetik qayənin konteksti və yardımçısı kimi" mövzusundakı doktorluq dissertasiyası elmi ictimaiyyətin böyük marağına səbəb olmuşdur. Hazırda o, Orta əsrlər ədəbiyyat tariximizin görkəmli mütəxəssislərindən biridir.

Akademik İsa Həbibbəyli haqlı olaraq yazır: "Teymur Kərimlinin Nizami Gəncəviyə aid tədqiqatlarında bu böyük sənət dühasının əsərləri onun özünəqədərki tarixlə və öz dövrünün tarixi hadisələri və şəxsiyyətləri ilə birlikdə öyrənilmişdir. T.Kərimli qüdrətli sənətkar olan Nizami Gəncəviyə də dahi şair olmaqdan başqa, həm də böyük tarixi şəxsiyyət kimi yüksək qiymət vermişdir.

Teymur Kərimliyə görə, Nizami Gəncəvinin ölməz "Xəmsə"si yazıldığı dövrə qədərki möhtəşəm hadisələrin və şəxsiyyətlərin böyük ədəbiyyat vasitəsilə yazılmış tarixi, yarandığı dövrün isə mükəmməl ədəbi salnaməsidir... O, tarixçi biliklərinə malik olan geniş dünyagörüşlü ədəbiyyatşünas alim səviyyəsində diqqəti cəlb edir".

Alim 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2015-ci ildə həqiqi üzvü seçilmişdir. 2010-cu ildə "Heydər Əliyev və klassik ədəbiyyat" araşdırmasına görə Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı olmuşdur. Otuz ildən artıq AMEA Ədəbiyyat İnstitutunda çalışan alim institutun Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, direktor müavini vəzifələrində çalışmış, iki dəfə bu elmi-tədqiqat müəssisəsinin direktoru vəzifəsini icra etmişdir. O, 2015-ci ildən Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktorudur.

***

Nizami yaradıcılığı, Nizami və tarix problemi T.Kərimlinin ədəbiyyatşünaslıq araşdırmalarında mərkəzi yer tutur. Onun bu istiqamətdəki araşdırmaları 2002-ci ildə "Elm" nəşriyyatında



çap etdirdiyi "Nizami və tarix" monoqrafiyasında əksini tapmışdır (Kitabın redaktoru AMEA-nın müxbir üzvü Yaşar Qarayev olmuşdur). Monoqrafiyada Nizaminin yaradıcılığında tarixə münasibətə dair araşdırmalardan kənarda qalmış geniş spektrdə problemlər nəzərdən keçirilir. "Xəmsə"nin yazıldığı tarixi şərait, Nizami yaradıcılığında antropomorf cizgilər kəsb edən Tanrı obrazı, Məhəmməd peyğəmbərin obrazı, tarixi şəxsiyyət və dini ideal, Nizaminin məmduhları, "Xəmsə"də tarixi şəxsiyyət və mühit, hökmdar surətlərinin tarixi təkamülü, "Xəmsə" poetikasının tarixi rolu kimi məsələlər təhlil edilir.

Tarixi faktlarla Nizami əsərlərində cərəyan edən hadisələri ətraflı müqayisə edən Ədəbiyyatşünas-alim dahi şairin tarixə özünəməxsus münasibəti barədə yazır: "Nizaminin tarixə müraciət özəlliklərindən biri də tarixi şəxsiyyət və tarixi hadisəni öz ideya-estetik qayəsinə tabe etdirmək bacarığındadır. Belə demək mümkünsə, Nizami tarixin, tarixi qaynaqların yedəyində getmir, tarix, tarixi qaynaqlar Nizami sənətinin yedəyində gedir".

T.Kərimli Nizaminin tarixə, tarixi şəxsiyyətlərə münasibətini araşdırarkən böyük Azərbaycan şairinin dühasını, humanizmini özünəməxsus rakursdan nəzərdən keçirir. Nizamini dünya tarixini lazımsız təfərrüatlardan təmizləyərək humanist ideyalarına uyğun şəkildə oxucusuna çatdıran, onu özünün bədii şəkildə yazdığı tarixdən dərs deyən müdrik bir ustad kimi təqdim edir. Alim yazır: "Xəmsə"də tarixi hadisə və tarixi şəxsiyyətdən istifadə edərkən Nizaminin məqsədi heç də tarixi olduğu kimi nəzmə çəkib oxucuya çatdırmaq olmamışdır. Buna görə də yeri gəldikcə öz poemalarında təsvir etdiyi tarixi hadisə və tarixi şəxsiyyətlər Nizami tərəfindən müxtəlif məna çalarları alır və çox vaxt da ideallaşdırmağa məruz qalırlar. Bu məqsədlə Nizami bir sıra əməliyyatlar aparır, tarixi hadisə və şəxsiyyətləri müxtəlif təfərrüatlardan, qarışıqlardan, aşqarlardan təmizləyir və saf "külçə" halına salaraq öz oxucusuna təqdim edir".

T.Kərimli Nizaminin Azərbaycan türkü olduğunu hər vəchlə inkar etməyə çalışan, onu fars və ya ləzgi kimi təqdim etmək istəyən "araşdırıcıların" qeyri-elmi fikirlərinə tutarlı dəlillərlə cavab verən alimlərimizdəndir. Əsərlərində o, dahi şairin irsində tarixi hadisələrin bədii əksinin milli məqsədlərə xidmət etdiyini sübut etmiş, Nizaminin türklərə və türklüyə rəğbətinin onun etnik mənsubiyyəti ilə bağlı olduğunu göstərmişdir. "Nizami və tarix" monoqrafiyasında tədqiqatçı belə bir qənaətə gəlir ki, Nizamidən sonra cismani və mənəvi cəhətdən gözəl insanı "türk" adlandıran bir sıra farsdilli şairlər məhz Nizamidən nümunə götürmüşlər. T.Kərimli Nizaminin mədh etdiyi ilk hökmdarın ("Sirlər xəzinəsi" poemasında) – Ərzincan hakimi Fəxrəddin Məlik Bəhram şah ibn Davudun türk olduğunu da təsadüf hesab etmir. Şairin türk olan Səlcuqlulara münasibəti də alimin nəzərindən qaçmamışdır.

Nizaminin milliyyətcə ləzgi olduğunu sübut etməyə çalışan Dağıstanın Xalq şairi Arben Kardaşa cavab olaraq T.Kərimlinin akademik Bəkir Nəbiyevlə birlikdə yazdığı, 2011-ci il 9 sentyabr tarixli "Ədəbiyyat qəzeti"ndə çap edilmiş "Türkofobiyanın növbəti residivi" adlı məqalədə oxuyuruq: "Təəssüf ki, hələ də informasiya kasadlığından əziyyət çəkən bəzi dairələrdə məlumatsızlıqdan, ya da qəsdən Nizamini İran şairi kimi qələmə vermək cəhdləri, böyük şairin türk kökünü təhrif edərək başqa etnik qruplara bağlamaq həvəsi də özünü göstərir. Nizaminin bütün yaradıcılığında türklərə və türklüyə məhəbbət qırmızı xətt kimi keçir. Əsərlərində bir çox türk sözlərindən istifadə etmişdir. Onun əsərlərindən öz doğma xalqına – türk etnosuna məhəbbəti açıq-aşkar duyulmaqdadır. Nizaminin türklərə məhəbbəti bir də onda özünü büruzə verir ki, şair yaratdığı müsbət monumental obrazların əksəriyyətini ya türk kimi təsvir edir, ya da onların müsbət insani sifətlərini türklərlə müqayisə edir".

***

Akademik T.Kərimli həm də görkəmli füzulişünasdır. Onun tədqiqatlarında Məhəmməd Füzuli irsinin bir sıra araşdırılmamış problemləri, diqqətdən kənarda qalmış məsələləri nəzərdən keçirilir. Alim Füzuli yaradıcılığına dair araşdırmalarından ibarət kitabını, təsadüfi deyil ki, "Görünməyən Füzuli" adlandırmışdır. Azərbaycanda füzulişünaslığın kifayət qədər zəngin tarixi vardır. Bununla bərabər, böyük şairimizin həyat və yaradıcılığının tədqiqi, ədəbi irsinin təbliği sahəsində görüləcək işlər də çoxdur. T.Kərimli haqlı olaraq belə hesab edir ki, Füzulinin böyük sənət möcüzəsini açmaq, onun bədii obrazlarını, kəşflərini, yaradıcılığının görünməyən tərəflərini müasir oxuculara çatdırmaq ədəbiyyatşünaslığımız qarşısında duran ən vacib məsələlərdəndir. Müsahibələrinin birində alim göstərir ki, yaradıcılığının tədqiqi zamanı Füzuli çox vaxt Şərq kontekstindən ayrılmış, Avropa və rus-sovet ədəbiyyatşünaslığının tələbləri baxımından araşdırılmışdır. Təbii ki, belə araşdırmalar mütləq təhriflərə aparıb çıxarmalıdır. Çünki Füzulini ümumşərq mədəniyyətindən, ədəbiyyatından, Şərq poetikasından ayrı tədqiq etmək qeyri-mümkündür. T.Kərimli haqlı olaraq belə hesab edir ki, bu gün Füzulini öyrənmək həm də ona görə zəruridir ki, mənəvi-əxlaqi dəyərlərimizin qloballaşma ilə qarşı-qarşıya durduğu indiki vəziyyətdə ən böyük və etibarlı istinad nöqtələrimizdən biri də bu dahi şairimizin zəngin irsidir.

T.Kərimliyə görə, böyük şairin istedadının, sənət möcüzəsinin ən diqqətəlayiq cəhətlərindən biri onun şeirlərindəki gözlənilməzlik effektidir. Tədqiqatçının özü bu barədə yazır: "Şeirə cila verərkən Füzulinin işlətdiyi poetik təsir vasitələrindən biri gözlənilməzlik effektidir. Bunun təsir mexanizmi ondan ibarətdir ki, klassik poeziyaya bələd olan oxucu beytin birinci misrasından sonra hansı fikrin, obrazın gələcəyini təxmin edərək gözləyir. Lakin tamamilə başqa, daha gözlənilməz, təsirli fikir, yaxud obraza rast gəldikdə əvvəlcə çaşır, sonra isə estetik ləzzət və razılıq hissi keçirir. Ancaq bu gözlənilməzliyi, Füzuli, necə dəyərlər, oxucunun önünə qızıl nəlbəkidə qoymur. Bəzən oxucu həmin mənaya varmaq üçün xeyli düşünməli, baş sındırmalı olur".

Xüsusi olaraq qeyd etmək istərdik ki, tədqiqatçı araşdırmalarında Füzulinin yaradıcılıq laboratoriyası, bədii kəşfləri ilə yanaşı, böyük şairin oxucusunun fikrinin inkişaf xəttini də araşdırmaya cəlb etmiş, maraqlı elmi nəticəyə gəlmişdir. Nizami yaradıcılığında tarixiliyi tədqiq edən T.Kərimli Füzulinin yaradıcılığında da tarixilik mövzusunu araşdırmış, "Fərdin tarixiliyi və Füzuli "Leyli və Məcnun"unda tarixilik" adlı məqalə yazmışdır.

***

T.Kərimli dahi şairimiz İmadəddin Nəsiminin 650 illiyinə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilmiş "Nəsimi İli"nə həsr olunmuş "Çağdaşımız Nəsimi" kitabında dahi sənətkarın ölməz yaradıcılığının çağdaş əhəmiyyətindən bəhs etmiş, onun irsinin bu günümüz üçün, xalqımız və ümumilikdə bəşəriyyət üçün aktuallığına nəzər salmışdır. Alim əsas diqqətini sufizm və hürufizm ideologiyasından xaric Nəsimi humanizminin araşdırılmasına yönəltmiş, şairin lirikasını klassikin müasirliyi prizmasından nəzərdən keçirmişdir.

Monoqrafiyada İmadəddin Nəsiminin həyat və yaradıcılığının Azərbaycanda yenidən yüksək səviyyədə öyrənilməsinin, Nəsimi irsinin nəşri və təbliğinin möhkəm özülünü ucaltmış Ümummilli lider Heydər Əliyevin bu sahədəki müstəsna fəaliyyətinin qiymətləndirilməsinə xüsusi bölmə ayrılmışdır.

Akademikin 2023-cü ildə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi və "Heydər Əliyev İli" münasibətilə nəşr olunmuş "Heydər Əliyev və klassik irs" adlı monoqrafiyasında isə Ulu öndərin Azərbaycan yazılı abidələrinə, ələlxüsus əlyazma irsimizə qayğısı, onun Respublika Əlyazmalar Fondunun xüsusi elmi tədqiqat institutu statusu almasında və müəssisənin maddi-texniki bazasının yüksəldilməsindəki rolu və başqa xidmətləri xüsusi vurğulanmışdır.

Teymur müəllim həyatını klassik ədəbiyyatın araşdırılmasına həsr etmək qərarına gəlmiş gənclərin tədqiqatçı kimi yetişməsinə xüsusi fikir verir, onlara qayğı ilə yanaşır. Klassik Azərbaycan ədəbiyyatının yorulmaz araşdırıcısı akademik Teymur Kərimliyə 70 yaşının tamam olduğu bu ərəfədə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Paşa Əlioğlu**
**filologiya elmləri doktoru, AMEA Əlyazmalar İnstitutunun icraçı direktoru**

# Saz-söz sənətimiz haqqında antologiya çapdan çıxıb

Azərbaycan Aşıqlar Birliyi (AAB) tərəfindən hazırlanmış "Aşıq, bağrına bas sədəfli sazı" adlı antoloji nəşr işıq üzü görüb.

Oxucular topluda aşıqların və yazılı ədəbiyyat nümayəndələrinin saza və aşıq sənətinə, eləcə də bu sənətin azmanları – ustad aşıqlara həsr etdikləri şeir və poemaları ilə tanış ola biləcəklər. "Dədə Qorqud" boylarında, aşıq dastanlarında, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Hüseyn Şəmkirli, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Şenlik, Molla Cuma, Hüseyn Bozalqanlı, Nəbi Faxralı, Aşıq Şəmşir, Hüseyn Saraçlı, Mikayıl Azaflı, Ədalət Nəsibov kimi görkəmli sənətkarların saza və aşığa həsr etdikləri şeirlərlə yanaşı, sonrakı dönəmdə onların özlərinə həsr edilmiş çoxsaylı şeirlər də topluda geniş yer alıb.

Antologiyada həmçinin saza-sözə böyük məhəbbəti olan görkəmli qələm ustadlarımızın, xüsusən də Osman Sarıvəlli, Hüseyn Arif və Zəlimxan Yaqub kimi Xalq şairləri və digər böyük söz ustadlarının şeirləri ilə yanaşı, ustad aşıqlara, onların saz-söz dünyasına həsr etdikləri poemalarından parçalar da verilib.

Kitabda aşıq sənəti və saza, eləcə də sazbəndlik və usta sazbəndlərə həsr olunmuş şeirlərlə yanaşı, aşıq və şairlərin saz




havalarına həsr etdikləri qoşma və gəraylıların da mühüm bir qismi yer alıb.

"Aşıq, bağrına bas sədəfli sazı" saz və aşıq obrazına həsr olunmuş ilk antoloji nəşr işi kimi qopuza-saza verilən dəyər, eləcə də aşıq sənətinin bədii-estetik və fəlsəfi mahiyyətini görkəmli şair və aşıqların dilindən təqdim edən bir qədirşünaslıq örnəyidir.

Toplunun elmi məsləhətçisi AAB-nin sədri, Dövlət mükafatı laureatı, professor Məhərrəm Qasımlı, hazırlayanları M.Qasımlı, filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu və filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədli, redaktoru isə filologiya üzrə fəlsəfə doktoru, dosent Aynur Xəlilovadır.

## Xatirə təqvimi (30 sentyabr – 3 oktyabr)

### Azərbaycan

**30 sentyabr 1891** – Xalq artisti Aleksey Lvoviç Qripiç (1891-1983) anadan olub. Azərbaycan Dövlət Rus Dram Teatrında (1936-1948) quruluşçu rejissor və baş rejissor işləyib.

**30 sentyabr 1920** – Əməkdar incəsənət xadimi, rejissor Lətif Bəşir oğlu Səfərov (1920 – 9.12.1963) Şuşada anadan olub. "Bəxtiyar", "Qızmar günəş altında", "Leyli və Məcnun" filmlərinə quruluş verib. Azərbaycan Kinematoqrafçılar İttifaqının ilk sədri olub.

**30 sentyabr 1933** – Bəstəkar, truba ifaçısı, dirijor, pedaqoq Əziz Əkbər oğlu Əzizli (1933-2005) Bakıda anadan olub.

**30 sentyabr 1945** – Şair Vaqif İbrahim (Vaqif Əliyar oğlu İbrahimov; 1945-1983) Şəkidə doğulub. Kitabları: "Bu torpaqda doğulanlar", "Dünyanın keşiyində" və s.

**30 sentyabr 1950** – Bəstəkar, Əməkdar incəsənət xadimi Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyli (17.4.1884 – 1950) vəfat edib. "Aşıq Qərib" operası, "Əlli yaşında cavan" musiqili komediyasının müəllifidir.

**30 sentyabr 1969** – Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Sumqayıt Dövlət Gənclər Dram Teatrına görkəmli aktyor, rejissor Hüseyn Ərəblinskinin adı verilib.

**30 sentyabr 1988** – Əməkdar incəsənət xadimi, rəssam Əbdülxalıq (Əbdülxalıq Əbdüləli oğlu Rzaquliyev; 5.5.1920 – 1988) vəfat edib.

**30 sentyabr 1991** – Tanınmış xanəndə Səxavət Əmirxan oğlu Məmmədov (23.10.1953 – 1991) dünyasını dəyişib.

**30 sentyabr 2009** – Azərbaycan aşıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bu barədə qərar UNESCO Hökumətlərarası Komitəsinin Abu-Dabidə (Birləşmiş Ərəb Əmirlikləri) keçirilən 4-cü sessiyasında qəbul edilib.

**30 sentyabr 2012** – Gəncə şəhərində Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə beynəlxalq konfrans keçirilib. Konfransda 20-dən çox ölkədən nümayəndələr iştirak edib. Konfrans çərçivəsində keçirilən xüsusi toplantıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təsis edilib.

**30 sentyabr 2021** – Tanınmış müğənni Səyyad Əşrəf oğlu Əlizadə (6.8.1958 – 2021) vəfat edib.

**30 sentyabr 2021**– Azərbaycan və Özbəkistanın Əməkdar artisti Kövkəb Əliyeva (1935–2021) vəfat edib.

**1 oktyabr 1897** – Görkəmli şairə Xurşidbanu Natəvan (1832, Şuşa –1897) vəfat edib. Sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızıdır. Şuşada "Məclisi-üns" ədəbi birliyinin yaradıcısı olub. Ağdamın "İmarət" qəbiristanında dəfn edilib.

**1 oktyabr 1932** – Mədəniyyət xadimi Əkbər Fərzəli oğlu Fərzəliyev (1932-1999) Qusar rayonunda anadan olub. "Qızmar günəş altında", "Koroğlu" və s. filmlərdə çəkilib. 1963-cü ildə Qusarda Ləzgi Xalq teatrını təşkil edib.

**1 oktyabr 1949** – Əməkdar artist Almaz Əhməd qızı Mustafayeva (1949 – 26.12.2020) Ağdam şəhərində doğulub. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktrisası olub, filmlərdə çəkilib.

**1 oktyabr 1965** – Qəzəlxan şair, Əməkdar incəsənət xadimi Əliağa Vahid (Əliağa Məmmədqulu oğlu İsgəndərov; 18.2.1895 – 1965) vəfat edib. Nizami, Xaqani, Nəvai və b. şairlərin qəzəllərini Azərbaycan dilinə tərcümə edib.

**1 oktyabr 2018** – Bakı şəhərində dahi bəstəkar Qara Qarayevin Ev-Muzeyinin açılış mərasimi olub.

**2 oktyabr 1913** – Əməkdar incəsənət xadimi, dirijor Çingiz Zülfüqar oğlu Hacıbəyov (1913 – 18.1.1971) anadan olub.

**2 oktyabr 1915** – Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan "Açıq söz" qəzetinin ilk sayı çapdan çıxıb. 1918-ci ilədək nəşr olunub.

**2 oktyabr 1923** – Əməkdar mədəniyyət işçisi Turan Cavid (Turan Hüseyn Cavid qızı Rasizadə; 1923 – 12.9.2004) anadan olub. C.Cabbarlı adına Dövlət Teatr Muzeyinin, Hüseyn Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**2 oktyabr 1924** – Azərbaycanda fəhlə və kəndli müxbirlərin birinci qurultayı keçirilib.

**2 oktyabr 1935** – Şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Səyavuş İmran oğlu Məmmədzadə (1935 – 3.9.2022) anadan olub. Azərbaycan ədəbiyyatından rus dilinə, rus, bolqar, Ukrayna, Polşa ədəbiyyatından Azərbaycan dilinə tərcümələr edib.

**2 oktyabr 1962** – Əməkdar artist Elşən Şıxəli oğlu Şirəliyev (1962 – 20.12.2021) Bakıda anadan olub. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub.

**2 oktyabr 1969** – Musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Seyran Əmir oğlu Qafarov (2.10.1969 – 5.11.2018) Bakıda anadan olub.

**2 oktyabr 1981** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Həsənağa Dərya oğlu Salayev (5.12.1921 – 1981) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, "Görüş", "Onu bağışlamaq olarmı?", "Aygün" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**3 oktyabr 1875** – Yazıçı-dramaturq Süleyman Sani Rzaqulu bəy oğlu Axundov (1875-1939) Şuşada anadan olub. Yazıçının "Qorxulu nağıllar" toplusu Azərbaycan uşaq ədəbiyyatının klassikası sayılır. "Laçın yuvası", "Eşq və intiqam", "Tamahkar" və s. pyeslərin müəllifidir.

**3 oktyabr 1887** – Əməkdar artist Ələkbər Hüseyn oğlu Hüseynzadə (1887 – 4.11.1967) anadan olub. "Arşın mal alan" (1945) filmində Soltan bəy obrazına görə Dövlət mükafatına layiq görülüb. Bu rolu Musiqili Komediya Teatrında 600 dəfə ifa edib. "Qara daşlar", "Ögey ana" və s. filmlərdə çəkilib.

**3 oktyabr 1990** – Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Naxçıvan MR Culfa rayonu ərazisində "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

**3 oktyabr 1996** – Xalq yazıçısı İlyas Məhəmməd oğlu Əfəndiyev (26.5.1914 – 1996) vəfat edib. "Söyüdlü arx", "Körpüsalanlar", "Geriyə baxma, qoca" və s. romanların, Azərbaycan dramaturgiyasında yeni mərhələ təşkil edən pyeslərin müəllifidir.

### Dünya

**30 sentyabr 1715** – Fransız filosofu Etyen de Kondilyak (Etienne Bonnot de Condillac; 1715-1780) anadan olub.

**30 sentyabr 1917** – Məşhur teatr rejissoru, Rusiyanın Xalq artisti, pedaqoq Yuri Lyubimov (1917-2014) anadan olub. Uzun illər Taqanka Teatrının rəhbəri olub.

**1 oktyabr** Beynəlxalq Musiqi Günüdür (International Music Day). UNESCO yanında Beynəlxalq Musiqi Şurasının qərarı ilə 1975-ci ildən qeyd olunur.

**1 oktyabr** həmçinin Beynəlxalq Ahıllar Günüdür. BMT Baş Assambleyasının 14 dekabr 1990-cı il tarixli qətnaməsinə əsasən təsis olunub. 1991-ci ildən qeyd olunur.

**1 oktyabr 1912** – Rus tarixçisi, filosof, şair Lev Qumilyov (1912-1992) anadan olub. Qədim türk tarixinə dair əsərlərin müəllifidir: "Böyük çöl", "Hunlar Asiya və Avropada".

**1 oktyabr 1930** – Fransız aktyoru Filipp Nuare (Philippe Noiret; 1930-2006) anadan olub.

**2 oktyabr 1832** – İngilis etnoqrafı və yazıçısı Eduard Bernett Teylor (Edward Burnett Tylor; 1832-1917) anadan olub.

**2 oktyabr 1869** – Hindistanda milli-azadlıq hərəkatının ideoloqu, filosof Mahatma Qandi (Mohandas Karamchand Gandhi; 1869-1948) anadan olub.

**2 oktyabr 1914** – Məşhur sovet diktoru, SSRİ-nin Xalq artisti Yuri Levitan (1914-1983) anadan olub.

**3 oktyabr 1895** – Rus şairi Sergey Yesenin (1895 - 27.12.1925) anadan olub. 1924-1925-ci illərdə Bakıda yaşayıb. Burada 40-dək şeirini yerli mətbuatda dərc etdirib. Mərdəkanda şairin xatirə muzeyi var.

**3 oktyabr 1897** – Fransız şairi, ədəbiyyatda sürrealizmin banilərindən Lui Araqon (Alouis Aragon – Louis-Marie Andrieux; 1897-1982) anadan olub.

**3 oktyabr 1919** – Məşhur Litva şairi Eduardas Mejelaytis (Eduardas Miezelaitis; 1919-1997) anadan olub.

**Hazırladı: V.Orxan**

# Şanlı Zəfərin ilk addımlarının atıldığı tarix

## Bir sıra ölkələrdə Anım Günü ilə bağlı tədbirlər keçirilib



27 sentyabr – Anım Günü münasibətilə bir sıra ölkələrdə tədbirlər keçirilib. Tariximizə qızıl hərflərlə yazılan 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən söz açılıb.

Azərbaycanın Pakistandakı Səfirliyində Anım Günü ilə bağlı tədbir təşkil edilib. Tədbirdə "Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru" kitabının təqdimatı da olub.

Səfir Xəzər Fərhadov Vətən müharibəsindən söhbət açıb, Ordumuzun 2020-ci ildə Ermənistanın 30 ilə yaxın davam edən hərbi təcavüzünə 44 gündə son qoyub, bütövlüyümüzü təmin etdiyini diqqətə çatdırıb. X.Fərhadov bu günlərdə (19-20 sentyabr) Azərbaycanın Qarabağ iqtisadi rayonunda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri barədə də danışıb.

Səfir "Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru" kitabı haqqında da məlumat verib, nəşri qonaqlara təqdim edib.

Pakistan Senatının Müdafiə komitəsinin sədri Müşahid Hüseyn Seyid, senator Məhəmməd Talha Mahmud və Pakistanın Ortaq Gələcəyə Malik Cəmiyyət naminə Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Teymur Əkrəm Azərbaycanın öz torpaqlarını erməni işğalından azad etməsi münasibətilə təbriklərini çatdırıblar.

***

Fransadakı səfirliyimizdə keçirilən anım tədbirində səfir Leyla Abdullayeva çıxış edərək Vətən müharibəsinin səbəb və nəticələri barədə söz açıb. Bildirib ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində torpaqlarımız işğaldan azad edilib, xalqımız ümdə arzusuna qovuşub. Azərbaycanın müstəqilliyini, Vətənimizin ərazi bütövlüyünü hər şeydən üstün tutan, bu yolda canlarından keçmiş şəhidlərimizin xatirəsi yaddaşımızda əbədi həkk olunub.

***



"Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının" (ABİA) və İraqın Telafər şəhər meriyasının birgə təşkilatçılığı ilə anım tədbiri keçirilib.

İraqın türkmənlər yaşayan Telafər şəhərindəki Gənclik Mərkəzində təşkil olunan tədbirdə şəhərin meri Seyid Qasim Şərifi çıxış edərək Azərbaycanın öz ərazi bütövlüyünün bərpası uğrunda apardığı Vətən müharibəsi zamanı türkmənlərin ruhən onların yanında olduqlarını və mənəvi dəstək verdiklərini, Azərbaycanın uğurlarına sevindiklərini deyib. O, Azərbaycan ərazilərinin işğalı dövründə baş vermiş erməni vandalizmini İraqdakı İŞİD dövrü zülmü ilə müqayisə edib. Şəhər meri antiterror əməliyyatlarındakı uğuru və suverenliyinin tam bərpası ilə əlaqədar Azərbaycana təbriklərini çatdırıb.

ABİA-nın heyətinin sədri Elçin Əsgərov İraqın türkmən əhalisinin Azərbaycana göstərdiyi ardıcıl mənəvi dəstəyə görə təşəkkürünü bildirib. Digər çıxışlarda da İkinci Qarabağ müharibəsində Qələbənin bütün Türk və İslam dünyaları üçün əhəmiyyəti qeyd olunub. Telafərin bütün türkmən tayfalarının başçıları və İraq Türkmən Cəbhəsinin yerli təşkilatının rəhbərliyi Azərbaycanın haqq işinə dəstək nümayiş etdiriblər.

Daha sonra "44 günlük qəhrəmanlıq salnaməsi" adlı fotosərgiyə baxış olub.

***

Azərbaycan Turizm Bürosu İsrail nümayəndəliyinin dəstəyi ilə ölkəmizin İsraildəki səfirliyi tərəfindən Təl-Əviv şəhərində anım tədbiri təşkil edilib.

Səfir Muxtar Məmmədov tarixi Qələbəmizdən Azərbaycan Ordusunun göstərdiyi böyük şücaətdən danışıb.

Diplomat Azərbaycanın daim yanında olan qardaş Türkiyənin, həmçinin İsrail Dövlətinin göstərdiyi əvəzsiz dəstək barədə məlumat verib.

Sonda Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən hazırlanan və 27 sentyabr – Anım Gününə həsr olunan videoçarx nümayiş etdirilib.

***

Azərbaycanın Macarıstandakı Səfirliyində keçirilən tədbirdə səfir Tahir Tağızadə çıxış edərək Anım Gününün xalqımız üçün iki mühüm məna daşıdığını diqqətə çatdırıb. Deyib ki, sentyabrın 27-də qəhrəmanlarımızın xatirəsini yad etməklə yanaşı, Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin başladığı gün kimi də qeyd olunur.

T.Tağızadə Macarıstanın ölkəmizin beynəlxalq hüququn prinsiplərinə əsaslanan mövqeyinə göstərdiyi dəstəyin Cənubi Qafqaz bölgəsində uzunmüddətli sülhə nail olunmasına, eləcə də Avropanın təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Sonra tədbir iştirakçıları 44 günlük Vətən müharibəsinə həsr edilmiş videoçarxı izləyiblər.

***

Anım Günü ilə əlaqədar Bolqarıstan mediasında materiallar dərc olunub.

Ölkəmizin Bolqarıstandakı Səfirliyindən bildirilib ki, məlumatlarda dünya azərbaycanlıları tərəfindən sentyabrın 27-də Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün qəhrəmanların xatirəsinin dərin ehtiramla yad edildiyi diqqətə çatdırılır. Qeyd olunur ki, Azərbaycan Qarabağ bölgəsindəki erməniəsilli əhalini öz vətəndaşları kimi qəbul edir, onların bütün hüquq və azadlıqlarını təmin etməyə hazırdır.

***

Azərbaycanın Dubaydakı Baş konsulluğunda ölkəmizin Birləşmiş Ərəb Əmirliklərində səfirliyi ilə birlikdə anım mərasimi təşkil edilib.

Baş konsul Cavidan Hüseynov qeyd edib ki, Vətən müharibəsində Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ordumuz tərəfindən 44 gün ərzində 300-dən çox şəhər və kəndimiz işğaldan azad olunub, Ermənistan 10 noyabr tarixində kapitulyasiya aktını imzalamağa məcbur edilib. Diplomat bir neçə gün əvvəl Qarabağda aparılan uğurlu antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində təxribatlar törədən qanunsuz erməni hərbi birləşmələrinin tərk-silah edildiyini, dövlətimizin bütün Qarabağ bölgəsində suveren hüquqlarının bərpa olunduğunu diqqətə çatdırıb.

Vətən müharibəsi qazisi Polad Rzayev dövlətimiz tərəfindən şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğıdan danışıb. Tədbirdə P.Rzayevdən bəhs edən videomaterial nümayiş olunub.

# UNESCO-nun Dünya İrs Siyahısı 42 yeni obyektlə zənginləşib

## 33-ü mədəni, 9-u təbii irs nümunəsidir

Xəbər verdiyimiz kimi, 10-25 sentyabr tarixlərində UNESCO-nun Dünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində 45-ci sessiyası keçirilib. Sessiyada UNESCO-nun Dünya İrs Siyahısına 42 yeni ərazi daxil edilib, siyahıda olan 5 ərazi isə genişləndirilib.




Siyahıya daxil edilən nümunələrdən 33-ü mədəni, 9-u təbii irsdir. Onlardan 15-i Avropada, 12-si Asiyada, 6-sı Afrikada, 6-sı Şimali və Cənubi Amerikada, 3-ü isə Yaxın Şərqdə yerləşir.

Qeyd edək ki, 45-ci sessiyada Azərbaycanın Hirkan Milli Parkını əhatə edən "Hirkan meşələri" transmilli (İranla birgə) nominasiyası və "Xınalıq və Köç yolu mədəni landşaftı" adlı milli nominasiya Dünya İrs Siyahısına, ölkəmizin Qarabağ bölgəsində, Xocavənd rayonu ərazisindəki qədim insan məskənləri – Azıx və Tağlar mağaraları isə Dünya İrs Komitəsinin İlkin Siyahısına daxil edilib.

# Vikipediyanın özbək dili seqmentində Anım Günü ilə bağlı bölmə

Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə Vikipediyanın özbək dili seqmentində 27 sentyabr – Anım Günü haqqında "Xotira kuni (Ozarbayjon)" adlı bölmə istifadəyə verilib.




AMM-in Vikipediya heyəti tərəfindən yaradılmış bölmədə Anım Günü haqqında ətraflı məlumat diqqətə çatdırılır. Məlumatda bu günün Azərbaycanda 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən İkinci Qarabağ müharibəsində həyatını itirən şəhidlərin xatirəsinin anılması məqsədilə Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı sərəncamla qeyd olunduğu vurğulanır.

Ümumilikdə 6 bölmədən və zəngin istinad siyahısından, keçidlərdən ibarət vikiməqalədə Anım Gününün mahiyyəti, Azərbaycanın tarixindəki əhəmiyyətindən söz açılır.

Bölmədə eyni zamanda Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində 44 gün ərzində tarixi ərazilərimizi işğaldan azad edərək şanlı Qələbə qazanması da qeyd olunur.

# Qahirədə Osmanlı yadigarı olan məscid bərpa edilib



Misirin paytaxtı Qahirə şəhərinin ən qədim abidələrindən olan Səlahəddin Eyyubi qalasında Osmanlı dövrünə aid Süleyman paşa məscidinin əsaslı təmirdən sonra açılışı keçirilib.

Açılış mərasimində çıxış edən Misirin turizm və qədim abidələr naziri Əhməd İssa Osmanlı abidələrinin bu ölkənin tarixinin mühüm bir hissəsi olduğunu, hökumətin onların bərpası istiqamətində səylərini davam etdirəcəyini bildirib. O əlavə edib ki, Süleyman paşa məscidində Misirin Qədim Abidələr Ali Şurasının memarları tərəfindən aparılan bərpa işləri beş il davam edib və bu məqsədlə büdcədən 5 milyon Misir funtu ayrılıb.

Osmanlı imperiyasının Misir valisi Süleyman paşa əl-Xədim tərəfindən 1528-ci ildə tikilən bu məscid osmanlıların ən yüksək qoşun hissəsi olan və 1517-ci ildə Qahirəni fəth edən yeniçərilərin ibadəti üçün nəzərdə tutulub. Bu ibadət məkanı İstanbulda Memar Sinanın inşa etdirdiyi məscidlərin memarlıq üslubunda tikilib.

Qahirədəki Osmanlı məscidləri türklərin memarlıq üslubuna uyğun olaraq qübbələr, nazik minarələr və keramik naxışlarla fərqlənir. Burada "Quran" qiraəti otağı, ibadət zalı, Osmanlı memarlıq üslubuna xas olan dörd günbəzli portiklər var.




## Olaylar, faktlar (30 sentyabr – 2 oktyabr)

### 471 il əvvəl...



**2 oktyabr 1552-ci ildə** Çar İvan (IV) Qroznının qoşunları bir neçə ay mühasirədə saxladığı Kazan şəhərinə daxil olublar. Şəhərin süqutu ilə Kazan xanlığının (indiki Tatarıstan və Volqaboyu ərazilər) Rusiya dövlətinə birləşdirilməsi başa çatdı.

### 196 il əvvəl...

**1 oktyabr 1827-ci ildə** Rusiya qoşunları İranla müharibə (1826-1828) gedişində İrəvan qalasını ələ keçiriblər. General İvan Paskeviçin komandanlıq etdiyi qoşunlar bundan öncə (20 sentyabr) bölgədəki əsas strateji məntəqə olan Sərdarabad qalasını işğal edəndən İrəvanın müdafiə imkanları zəifləmişdi. İrəvanın işğal olunmasında erməni əhalisi, Eçmiədzin kilsəsi ruslara hər cür yardım göstərmişdi.

### 105 il əvvəl...

**1 oktyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının yaradılması barədə qərar qəbul edib. Prezident Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən, 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

### 96 il əvvəl...

**1 oktyabr 1927-ci ildə** SSRİ ilə İran arasında "Qarşılıqlı təminatlar və neytrallıq haqqında" saziş imzalanıb. Sazişdə iki ölkənin Xəzərdəki sərhədi də müəyyənləşmişdi, sərhəd Astara (Azərbaycan) – Həsənqulu (Türkmənistan) xətti üzrə keçirdi.

### 77 il əvvəl...

**30 sentyabr 1946-cı ildə** faşist Almaniyasının rəhbərliyi üzərində qurulan Nürnberq məhkəməsi (1945-ci il noyabrın 20-də başlamışdı) yekunlaşıb. İki gün ərzində oxunan hökmlərə əsasən, Hitler komandasının rəhbərləri – Gerinq, Ribbentrop, Keytel, Kaltenb-



runer, Rozenberq və başqaları ölüm (asılmaqla) cəzasına məhkum ediliblər. Hitlerin baş maliyyəçisi Martin Borman haqqında qiyabi ölüm hökmü çıxarılsa da, onun 80-ci illərədək Cənubi Amerikada yaşadığı bildirilirdi.

### 74 il əvvəl...

**1 oktyabr 1949-cu ildə** Çin Xalq Respublikasının yarandığı elan edilib. Çin kommunistlərinin lideri Mao Tszedun (Zedong, Tsetung) dövlətin rəhbəri olub. 1840-cı illərdə qismən Britaniya imperiyasının təsiri altına



düşən Çində 1927-ci ildə Sun Yatsenin başçılığı ilə inqilab qələbə çalmışdı. Lakin bundan sonra hakimiyyətə gələn general Çan Kayşi diktatura rejimi qurdu və ölkənin əsas hissəsini müttəfiqi olduğu Yaponiyanın təsiri altına saldı. II Dünya müharibəsindən sonra Çində xalq inqilabı başlandı və ÇXR elan edildi.

### 65 il əvvəl...

**2 oktyabr 1958-ci ildə** Fransanın Qərbi Afrikadakı müstəmləkəsi olan Qvineya müstəqilliyini elan edib.

### 57 il əvvəl...

**30 sentyabr 1966-cı ildə** Böyük Britaniyanın Cənubi Afrikadakı müstəmləkəsi olan Botsvana müstəqilliyini elan edib. Botsvana 1885-ci ildə Britaniyanın protektoratlığına keçmişdi.

### 34 il əvvəl...

**30 sentyabr 1989-cu ildə** Fransanın Afrikadakı keçmiş müstəmləkələri olan Seneqal və Qambiya birləşdikləri vahid dövlətdən (Seneqambiya) çıxaraq yenidən iki ayrı dövlət olublar. 1960-cı ildə Fransanın müstəmləkəçiliyindən qurtulan Seneqal və Qambiya daha sonra vahid dövlət şəklində birləşmişdilər.

### 33 il əvvəl...

**30 sentyabr 1990-cı ildə** Azərbaycan SSR Ali Sovetinə və yerli xalq deputatları sovetlərinə seçkilər keçirilib. İlk dəfə olaraq seçkilər alternativ əsasda və çoxpartiyalı şəraitdə keçirilib. Ali Sovetə seçkilərin ilk turunda respublika üzrə 360 dairədən üçdə ikisində deputatlar seçildi, qalan dairələr üzrə təkrar seçkilər elan edildi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2549
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641